# YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

17 oktyabr 2025-ci il, cümə
№ 188 (7015)
Qiyməti 60 qəpik




Milli azadlıqdan şirin nemət yoxdur!

# Azad şəhərlərimizin yeni növrağı

İlham Əliyev
@azpresident

Rəşadətli Azərbaycan Ordusu tərəfindən Füzuli rayonunun Qoçəhmədli, Çimən, Cuvarlı, Pirəhmədli, Musabəyli, İşıqlı, Dədəli kəndləri və Füzuli şəhəri işğaldan azad edilib. Eşq olsun Azərbaycan Ordusuna! Qarabağ Azərbaycandır!

Translate Tweet

10:38 AM · Oct 17, 2020 · Twitter for iPhone






# 17 oktyabr Füzuli Şəhəri Günüdür

Bax səh. 3

# Avropa-Azərbaycan münasibətləri: regional əməkdaşlıq imkanları genişlənir

Bax səh. 2

## Qarşıdakı 4 ildə...

Maliyyə Nazirliyi tərəfindən 2026-2029-cu illəri əhatə edən Ortamüddətli Xərclər Çərçivəsi (OMXÇ) sənədi ictimaiyyətə açıqlanıb. Prezidentin 2018-ci il 24 avqust tarixli 235 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Ortamüddətli xərclər çərçivəsinin hazırlanması Qaydası"na uyğun olaraq hazırlanan OMXÇ özündə büdcə siyasətinin əsas istiqamət və hədəflərini, makro-fiskal çərçivəni, fiskal risklərin təhlili və mitiqasiya tədbirlərini, Milli Xərc Prioritetlərini, Ortamüddətli Resurs Zərfini, həmçinin icmal və dövlət büdcələrinin gəlir və xərclərinin proqnozlarını əhatə edir. Eyni zamanda, sənəddə proqram və nəticəəsaslı büdcə mexanizminə keçid islahatlarına cəlb olunan sektorlara növbəti ortamüddətli dövr üçün dövlət büdcəsindən ayrılan vəsaitlərin proqramlar üzrə bölgüsü barədə məlumatlar əks olunub.

2026-2029-cu illər üzrə Ortamüddətli Xərclər Çərçivəsinə əsasən, 2026-cı ilin sonuna ÜDM-in həcmi 129,2 milyard manat, o cümlədən qeyri-neft...

Bax səh. 5



## Gəncəyə qarşı terrordan 5 il ötür...

Bax səh. 5

## Uğurlu əməkdaşlığın növbəti parlaq təzahürü...

Bax səh. 4

## Pensiya sistemində islahatlar aparılacaq

Bax səh. 6

## TÜRKPA-nın parlament diplomatiyasında rolu artır

Qloballaşan dünyada türk dövlətlərinin və xalqlarının birliyi zərurətə çevrilib. Sovetlər ittifaqı dağıldıqdan sonra türk dövlətləri ilə münasibətlər qurmaq və inkişaf etdirmək Azərbaycanın xarici siyasətində prioritet olub. Artıq bu gün türk dünyasının birliyi reallığa çevrilməkdədir. Türk Dövlətləri Təşkilatının yaranması, siyasi, iqtisadi, mədəni, o cümlədən hərbi sahələrdə əməkdaşlığın gücləndirilməsi istiqamətində qəbul olunan qərarlar türk birliyinin qlobal gücə çevrilməsi yolunda atılan addımlardır. Azərbaycan türk dövlətlərinin inteqrasiyası prosesinin sadəcə iştirakçısı deyil, həm də ən fəal təşəbbüskarlarındandır.

Son illər regionda və dünyada cərəyan edən qlobal siyasi-iqtisadi proseslər də türk xalqlarının birliyini aktual məsələ kimi gündəmə gətirib. Bu mənada, türk dövlətlərinin müxtəlif təşkilatlar çərçivəsində...

Bax səh. 4



## Qəzzanın bərpası necə həyata keçiriləcək?

Bax səh. 7



## Ukrayna üçün "Qələbə Fondu"...

Bax səh. 7



# Azərbaycanla BMT-nin Məskunlaşma Proqramı arasında əməkdaşlığın perspektivləri müzakirə edilib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 16-da BMT-nin Məskunlaşma Proqramının (UN-Habitat) icraçı direktoru Anaklaudia Rossbaxı qəbul edib.

AZƏRTAC xəbər verir ki, söhbət zamanı qonağın Xankəndi şəhərində keçirilən III Azərbaycan Milli Şəhərsalma Forumunda iştirakının önəminə toxunuldu.

Anaklaudia Rossbax forumun yüksək səviyyədə təşkil edildiyini deyərək, həmin tədbirdə şəhərsalma məsələləri ilə bağlı çox aktual müzakirələrin aparıldığını vurğuladı.

Azərbaycan-UN-Habitat tərəfdaşlığı çərçivəsində ölkəmizdə indiyədək bir neçə milli şəhərsalma forumunun keçirildiyi məmnunluqla qeyd edildi.

Azərbaycanın Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında aparılan irimiqyaslı bərpa-yenidənqurma işlərinə toxunuldu, işğaldan azad edilmiş ərazilərimizdə şəhər və kəndlərimizin inşasında yeni müasir şəhərsalma modelinin tətbiq olunduğu bildirildi.

Qonaq Azərbaycanın BMT-nin Məskunlaşma Proqramına könüllü maliyyə töhfələrinə və onun fəaliyyətini dəstəklədiyinə görə təşəkkürünü bildirdi. O, COP29-un ölkəmizdə uğurla keçirildiyini vurğulayaraq, bu tədbirdə iqlim gündəliyi ilə urbanizasiya fəaliyyətinin bir araya gətirildiyini və bu xüsusda Azərbaycanın təşəbbüslərlə çıxış etdiyini məmnunluqla vurğuladı.

Görüşdə 2026-cı ildə ölkəmizdə keçiriləcək Birləşmiş Millətlər Təşkilatının ən nüfuzlu tədbirlərindən biri - Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyasına hazırlıqla bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı. Digər mötəbər beynəlxalq tədbirlər kimi bunun da yüksək səviyyədə keçiriləcəyinə əminlik ifadə olundu.

Söhbət zamanı Azərbaycanla BMT-nin Məskunlaşma Proqramı arasında əməkdaşlığın perspektivləri müzakirə edildi.

# Yeni səfirlər Bakıda...

## Ölkələrimiz arasında əməkdaşlıq üçün yaxşı perspektivlər var



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 16-da Niderland Krallığının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Marian de Yonqun etimadnaməsini qəbul edib.

AZƏRTAC xəbər verir ki, səfir etimadnaməsini dövlətimizin başçısına təqdim etdi.

Prezident İlham Əliyev ölkələrimiz arasında əməkdaşlıq üçün yaxşı perspektivlərin olduğunu dedi. Kopenhagendə Niderland Krallığının Baş naziri Dik Sxof ilə görüşünü xatırladan Prezident İlham Əliyev həmin görüş əsnasında tərəfdaşlığımızın müxtəlif aspektlərinin müzakirə olunduğunu vurğuladı, bir çox sahədə əməkdaşlığı gücləndirmək barədə razılığın əldə edildiyini bildirdi. Hazırda Niderland şirkətlərinin ölkəmizdə müxtəlif istiqamətlər üzrə fəaliyyət göstərdiyini deyən dövlətimizin başçısı gələcəkdə onların sayının çoxalacağına ümidvar olduğunu ifadə etdi.

Qəbula görə minnətdarlığını bildirən səfir Niderlandın Kralı Villem-Aleksandrın salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Niderlandın Kralı və Baş nazirinə çatdırmağı xahiş etdi.

Marian de Yonq ölkəsinin Azərbaycanla siyasi və iqtisadi sahədə güclü əməkdaşlıq etmək niyyətində olduğunu dedi, bunun qarşılıqlı fayda verəcəyinə əminliyini vurğuladı.

## Etimadın və dostluğun nümunəsi...



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 16-da Misir Ərəb Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Houssam-Eldine Redanın etimadnaməsini qəbul edib.

AZƏRTAC xəbər verir ki, səfir etimadnaməsini dövlətimizin başçısına təqdim etdi.

Prezident İlham Əliyev, ilk növbədə, Şarm-əl-Şeyxdə Yaxın Şərq Sülh Sammitinin yüksək səviyyədə təşkilinə görə Misir Ərəb Respublikasına təbriklərini çatdırdı. ABŞ Prezidenti Donald Tramp və Misir Prezidenti Əbdülfəttah əs-Sisi tərəfindən Azərbaycanın bu tədbirə dəvətini yüksək qiymətləndirən dövlətimizin başçısı bunu ölkələrimiz arasında mövcud olan etimadın və dostluğun nümunəsi kimi dəyərləndirdi.

Əbdülfəttah əs-Sisinin Azərbaycana səfərini, özünün isə Misirə rəsmi səfərini məmnunluqla xatırlayan Prezident İlham Əliyev bu səfərlər çərçivəsində müzakirə olunmuş mövzuların həyata keçirilməsi ilə bağlı məsələlərə toxundu.

Səfir Misir Prezidenti Əbdülfəttah əs-Sisinin salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Əbdülfəttah əs-Sisiyə çatdırmağı xahiş etdi.

Görüşdə Hökumətlərarası Komissiyanın əhəmiyyətinə toxunuldu, yaxın vaxtlarda onun növbəti iclasının keçiriləcəyi qeyd olundu. Bakı ilə Şarm-əl-Şeyx və Qahirə şəhərləri arasında birbaşa uçuşların olduğu və bunun turizm sahəsində əməkdaşlığa ciddi təkan verdiyi vurğulandı.

Söhbət zamanı mədəni və humanitar sahələrdə əməkdaşlığımızın perspektivləri müzakirə olundu.

## Avropa İttifaqı regional nəqliyyat bağlantılarının yaradılması layihələrini yaxından dəstəkləyir



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 16-da Avropa İttifaqının ölkəmizdəki nümayəndəliyinin yeni təyin olunmuş rəhbəri Mariyana Kuyundziçin etimadnaməsini qəbul edib.

AZƏRTAC xəbər verir ki, Mariyana Kuyundziç etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi.

Dövlətimizin başçısı Tirana və Kopenhagendə Avropa İttifaqı Şurasının Prezidenti Antonio Koşta və Avropa Komissiyasının Prezidenti Ursula Fon der Lyayen ilə görüşlərini məmnunluqla xatırlayaraq, həmin görüşlər əsnasında əməkdaşlığımızın inkişaf perspektivlərinə dair ətraflı müzakirələrin aparıldığını bildirdi. Prezident İlham Əliyev Azərbaycanla Avropa İttifaqı arasında əlaqələrin son dinamikasını vurğulayaraq, bir il ərzində Avropa İttifaqının 3 komissarının Azərbaycana səfərinə toxundu.

Mariyana Kuyundziç Vaşinqtonda ABŞ Prezidenti Donald Trampın şahidliyi ilə Azərbaycanla Ermənistan arasında sülh gündəliyinin irəli aparılması istiqamətində əldə edilmiş nailiyyətlər münasibətilə təbriklərini çatdırdı. Azərbaycanın fəal regional diplomatiya siyasəti yürütdüyünü deyən Avropa İttifaqının ölkəmizdəki nümayəndəliyinin yeni rəhbəri Mariyana Kuyundziç Prezident İlham Əliyevin son dövrlərdəki səfərlərinin və iştirak etdiyi beynəlxalq Zirvə toplantılarının bunun bariz nümunəsi olduğunu vurğuladı.

O, Azərbaycanla Avropa İttifaqı arasında münasibətlərin daha da inkişafı üçün əlverişli imkanların olduğunu deyərək, enerji, nəqliyyat sahələrində uğurlu əməkdaşlığa toxundu, Avropa İttifaqının regional nəqliyyat bağlantılarının yaradılması layihələrini yaxından dəstəklədiyini qeyd etdi.

Mariyana Kuyundziç Avropa İttifaqının ərazilərin minalardan təmizlənməsi sahəsində Azərbaycana dəstəyini davam etdirəcəyini bildirdi.

Görüşdə Azərbaycan-Avropa İttifaqı əlaqələrinin perspektivlərinə dair fikir mübadiləsi aparıldı.

## İkitərəfli gündəlikdə yeni dövr başlayıb



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 16-da Fransa Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Sofi Laqutun etimadnaməsini qəbul edib.

AZƏRTAC xəbər verir ki, səfir etimadnaməsini dövlətimizin başçısına təqdim etdi.

Prezident İlham Əliyev Kopenhagendə Fransa Prezidenti Emmanuel Makronla görüşünü xatırladaraq, həmin görüşün nəticəsində ölkələrimiz arasında anlaşılmazlığa səbəb olan məsələlərin keçmişdə qaldığını dedi. İkitərəfli gündəlikdə yeni dövrün başladığını vurğulayan dövlətimizin başçısı, ilk növbədə, insanlararası və biznes nümayəndələrinin təmaslarının, mədəni, humanitar sahələrdə əməkdaşlığın bərpasının və inkişaf etdirilməsinin önəminə toxundu.

Səfir də öz növbəsində Azərbaycanla Fransa arasında münasibətlərdə yeni səhifənin açıldığını deyərək, əlaqələrimizin inkişafı üçün səylərini əsirgəməyəcəyini bildirdi.

Görüşdə Azərbaycanla Fransa arasında əlaqələrin müxtəlif istiqamətlərdə, o cümlədən yüksək texnologiyalar və aerokosmik sahələrdə uğurlu inkişafına toxunuldu. Hökumətlərarası Komissiyanın fəaliyyətinin bərpasının əhəmiyyəti vurğulandı, qardaşlaşmış şəhərlər arasında əlaqələr qeyd edildi, biznes nümayəndə heyətlərinin qarşılıqlı səfərlərinin təşkili və müxtəlif layihələrdə Fransa şirkətlərinin iştirakı məsələləri müzakirə olundu.

Azərbaycanla Fransanın enerji sahəsində uğurlu tərəfdaşlığı və bu xüsusda ölkəmizlə "Total" şirkəti arasında əməkdaşlığın önəmi qeyd edildi.

Söhbət zamanı bir çox sahədə münasibətlərimizin perspektivlərinə dair fikir mübadiləsi aparıldı, əməkdaşlığın davam etdirilməsinin vacibliyi vurğulandı.

# Avropa-Azərbaycan münasibətləri: regional əməkdaşlıq imkanları genişlənir

### Bakı Avrasiyanın həm iqtisadi, həm siyasi, həm də nəqliyyat mərkəzlərindən birinə çevrilib

Cənubi Qafqaz geosiyasi məkanında lider dövlət statusunda çıxış edən, qlobal nizamın yeni və ən fəal aktorlarından biri kimi şöhrət qazanan Azərbaycan özünün çoxşaxəli xarici siyasət strategiyası ilə seçilir. Bu siyasi kurs həm ikitərəfli münasibətlər kontekstində, həm də çoxşaxəli əlaqələr fonunda yerləşdiyi regionun geosiyasi və geoiqtisadi, bir sözlə, geostrateji təhlükəsizliyinə fundamental töhfələr verir, regional miqyaslı, qlobal xarakterli əməkdaşlıqlar platformasını müəyyənləşdirir. Müstəqil siyasət yürütməsi, sivilizasiyalararası dialoqa mühüm töhfələr verməsi, regional və beynəlxalq təhlükəsizliyin təmin olunmasında strateji tərəfdaş qismində yer alması Azərbaycanın beynəlxalq nüfuzunu artıran əhəmiyyətli faktorlar qismində çıxış edir - xüsusilə indiki, yeni geostrateji çağırışlar şəraitində milli dövlətlərin regional və qlobal müstəvidəki yeri və rolu həyata keçirilən xarici siyasətin, ümumi regional inkişafa qazandırdığı yeni keyfiyyətlərin və bölgəsəl təhlükəsizlikdə tutduğu mövqenin çəkisi ilə mütənasiblik təşkil etdiyi bir zamanda ölkəmizin tutduğu mövqe bütün dövlətlər və təşkilatlar tərəfindən yüksək dəyərləndirilir. Praqmatik və eyni zamanda, davamlı, nəticəyə hədəflənmiş siyasət milli maraqları özündə ehtiva etməklə yanaşı, regional müstəvidə yeni situasiyaların formalaşmasını, yeni təhlükəsizlik nizamının daha da güclənməsini və davamlı perspektivlərin yaranmasını təmin etməkdədir - bu kimi nailiyyətlər isə nəticə etibarı ilə ölkəni regional sabitləşdirici faktora çevirir.

## Qitə ilə Azərbaycan arasında çoxşaxəli əlaqələr...

Qeyd edək ki, Azərbaycanın Avropa kontingenti ilə əlaqələri də çoxşaxəli və dinamik əməkdaşlığa əsaslanır. Bu münasibətlər bərabərhüquqlu tərəfdaşlıq və qarşılıqlı fayda prinsipləri üzərində formalaşıb. Azərbaycan Avropa üçün strateji əhəmiyyət daşıyan etibarlı tərəfdaşdır - xüsusilə enerji təhlükəsizliyi, alternativ enerji mənbələrinin inkişafı, regionda sabitliyin qorunması və nəqliyyat-kommunikasiya xətlərinin şaxələndirilməsi baxımından bu əlaqələr olduqca mühüm əhəmiyyət kəsb edir. Bu gün Azərbaycan - Avropa münasibətləri qarşılıqlı maraqların uzlaşdığı, regionda sülh, sabitlik və inkişafın təmininə yönəlmiş strateji tərəfdaşlıq modelinə çevrilib. Qitə ilə ölkəmiz arasındakı siyasi dialoq, ticarət dövriyyəsinin artması, "Yaşıl gündəm" çərçivəsində əməkdaşlıq və humanitar sahədə geniş layihələr bu əlaqələrin möhkəm təməl üzərində qurulduğunu göstərir.



## ATƏT-in Minsk Qrupunun ləğvi...

Görüş zamanı Azərbaycan və Ermənistanın müraciəti əsasında ATƏT-in Minsk prosesinin və onunla əlaqəli strukturların fəaliyyətinin 2025-ci il dekabrın 1-dək ləğv ediləcəyini bildirdi.

Bəli, 44 günlük Vətən müharibəsi və 2023-cü il antiterror tədbirlərinin yaratdığı yeni reallıqların siyasi nəticələri, siyasi uğurları artıq özünü göstərməkdədir. ATƏT-in Minsk Qrupunun işinə xitam verilməsi ilə abğlı qərar da məhz bunun göstəricisidir. Qeyd edək ki, 2025-ci il sentyabrın 1-də ATƏT Nazirlər Şurası tərəfindən ATƏT-in Minsk Prosesi və əlaqəli strukturlarının bağlanmasına dair qərar qəbul olunub. Qərara əsasən, Azərbaycan Respublikasının Prezidenti və Ermənistan Respublikasının Baş nazirinin ABŞ Prezidentinin dəvəti və iştirakı ilə 2025-ci il avqustun 8-də Vaşinqton şəhərində baş tutmuş görüşü çərçivəsində Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin ATƏT-in Fəaliyyətdə olan Sədrinə ünvanlanmış birgə müraciət məktubuna uyğun olaraq, ATƏT-in Minsk Prosesinin, ATƏT-in Fəaliyyətdə olan Sədrinin ATƏT-in Minsk Konfransının məşğul olduğu münaqişə üzrə Şəxsi Nümayəndəsinin və Yüksək Səviyyəli Planlaşdırma Qrupunun fəaliyyətinə sentyabrın 1-dən etibarən xitam verilib. Sözügedən strukturların bağlanmasından irəli gələn təşkilati və texniki məsələlərin 2025-ci il dekabrın 1-dən gec olmayaraq yekunlaşdırılması ATƏT Katibliyinə tapşırılıb. Qərarda, həmçinin keçmiş Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı ATƏT çərçivəsində vaxtilə qəbul edilmiş bütün qərarlar qüvvədən düşmüş və etibarsız elan olunub.

Vurğulayaq ki, 44 günlük müharibə ilə başa çatan münaqişə həm də ATƏT-in Minsk qrupunun ləğvini aktuallaşdırmışdı. Artıq tərəflər vasitəçiz bir ortamda razılaşma əldə ediblər - son reallıqlar isə bu quruma ehtiyacın qalmadığını faktiki olaraq ortaya qoyub. Avqustun 8-də Vaşinqtonda imzalanan sənədlər isə sülh yolunda ən mühüm addımlardan biri kimi tarixə yazıldı - beləliklə, artıq münaqişə olmadığı üçün onu həll etmək üçün yaradılan quruma da ehtiyac qalmır...

## Qlobal dünyaya sülh nümunəsi...

Yeri gəlmişkən, Prezident İlham Əliyev oktyabrın 15-də ATƏT-in fəaliyyətdə olan sədri, Finlandiya Respublikasının xarici işlər naziri Elina Valtonenin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib. Elina Valtonen Vaşinqtonda Azərbaycanla Ermənistan arasında əldə olunmuş nailiyyətlər münasibətilə Prezident İlham Əliyevi təbrik edərək, bunun ATƏT məkanında sülh və sabitliyin bərpası, həmçinin regional əməkdaşlıq baxımından önəmini qeyd edib. Prezident İlham Əliyev bildirib ki, Vaşinqtonda ABŞ Prezidenti Donald Trampın şahidliyi ilə Azərbaycan və Ermənistan arasında əldə olunmuş razılaşmalar sülh gündəliyinin irəli aparılmasına şərait yaradıb.

Həqiqətən də sülh prosesi nəinki tək Cənubi Qafqaz üçün, eyniilə Avropa məkanı üçün də yüksək perspektivlər, proqnozlar vəd edir. Nəzərə alsaq ki, dünyada artıq yeni siyasi-iqtisadi nizam formalaşdmaqdadır, Cənubi Qafqaz Aİ-nin Şərq kontingenti ilə əlaqələrinin qurulmasında açar rolunu oynayacaq. Paralel olaraq bu proses ümumən qitənin təhlükəsizlik indeksinin yüksəlməsinə, təhlükəsizlik arxitekturasının yenidən və daha möhkəm qurulmasına yol açacaq. Azərbaycanın qətiyyəti ilə inkişaf edən sülhyaratma prsosesi bütün dünya üçün bir nümunədir. Bakı regional toqquşmadan regional əməkdaşlığa doğru mühüm bir yol qət edib və yolun inkişaf trayektoriyasını model olaraq qlobal dünyaya təqdim etməkdədir. Sülh prosesi inkişafın ən mühüm amilidir - Bakı bu faktı bir daha sübuta yetirdi. Məhz sülhün ardından Şərq-Qərb logistika üçün olduqca vacib yeni seqmentin aktuallaşması reallaşdı. Beləliklə, Azərbaycan Vaşinqtonda qlobal təsdiqini qazanan sülh prosesini inkişaf etdirməklə həm beynəlxalq iqtisadi münasibətlər sisteminə, həm siyasi münasibətlər sisteminə, həm də ticari əlaqələri yeni bir müstəviyə daşıdı.

## Zəngəzur dəhlizi (TRİPP) bütün bölgə üçün faydalı olacaq...

Keçirilən görüşdə Prezident İlham Əliyev Vaşinqtonda Ermənistanın icrası ilə bağlı üzərinə öhdəlik götürdüyü TRİPP layihəsinin regional əməkdaşlıq baxımından önəminə toxundu, onun bütün bölgə üçün faydalı olacağını deyib.

Göründüyü kimi, Azərbaycan son 5 ildə böyük geostrateji əhəmiyyətə malik olan coğrafiyada yeni inkişaf mərhələsi yaradıb. Bu, gələcək yüzilliyin proyekti kimi qiymətləndirilən, dünyanın yeni dönəmdə səs ticarət xətti kimi mahiyyət kəsb edən Şərq-Qərb tranzitini daha da ön plana çıxarıb. Avropa məkanı belə Şərq-Qərb tranziti üzrə daşınmada Azərbaycanın əhəmiyyətini xüsusi vurğulayır. Avropa, hətta bütövlükdə Qərb Zəngəzur dəhlizi (TRİPP) vasitəsilə daşınmaların daha effektiv və tez çatdırılması amilini etiraf edir. Bu daşınmaların ən mühüm halqasını məhz Azərbaycan təşkil edir. Təsadüfi deyildi ki, bir müddət öncə Azərbaycanda səfərdə olan Almaniyanın Prezidenti Frank-Valter Ştaynmayer də, bu ilin avqustunda bakıya səfər etmiş Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Maqdalena Qrono da bu məsələni xüsusi vurğulamışdılar. Beləliklə, Avropa məkanı da bütövlükdə prosesin uğurlu inkişafında maraqlı olduğunu dilə gətirir. Hətta onlar həm enerji sahəsində, həm də Şərq-Qərb transformasiyası üzərindən qarşılıqlı biznes mühitinin inkişafı üçün yeni yollara ehtiyac olduğunu açıq şəkildə etiraf edirlər. Zəngəzur dəhlizi (TRİPP) Avropa ilə Şərq arasında əməkdaşlığın yeni mərhələyə qədəm qoymasına yol açacaq - paralel olaraq xətt üzrə əlaqələrin genişləndirilməsində, şaxələndirilməsində Azərbaycanın regional rolu böyükdür.

**P. İSMAYILOV**






# Azad şəhərlərimizin yeni növrağı

## 17 oktyabr Füzuli Şəhəri Günüdür

**Azərbaycanın 44 günlük Vətən müharibəsində qazandığı parlaq Qələbədən sonra təqvimə yeni əlamətdar günlər daxil olub. Bunlardan biri də işğaldan azad olunmuş ərazilər üzrə şəhər günləridir. Bu gün ölkəmizdə Füzuli Şəhəri Günü qeyd edilir.**

## İşğaldan azad edilmiş ərazilər üzrə şəhər günləri

Postmüharibə dövründə respublikamızda işğaldan azad edilmiş ərazilər üzrə şəhər günləri Prezident İlham Əliyevin imzaladığı iki müvafiq Sərəncam əsasında qeyd edilir. Dövlətimizin başçısının 31 iyul 2023-cü il tarixində imzaladığı Sərəncamla 26 avqust - Laçın, 4 oktyabr - Cəbrayıl, 17 oktyabr - Füzuli, 20 oktyabr - Zəngilan, 25 oktyabr - Qubadlı, 8 noyabr - Şuşa, 20 noyabr - Ağdam, 25 noyabr - Kəlbəcər şəhəri günü kimi müəyyənləşdirilib. Prezident İlham Əliyevin 18 sentyabr 2024-cü il tarixində imzaladığı digər Sərəncama əsasən isə 20 sentyabrda Xankəndi, Xocalı, Xocavənd və Ağdərə şəhərləri günü qeyd edilir.

İşğaldan azad edilmiş ərazilər üzrə şəhər günlərinin təsis edilməsi heç də təsadüfi deyil. Otuz illik işğal dövründə məqsədli şəkildə viran qoyulan şəhər və kəndlərimizin siyahısı çox uzundur. Bu siyahıda 9 Azərbaycan şəhərinin adı var. Ermənistan eyni zamanda Azərbaycanın yüzlərlə kəndini qəsdən dağıdıb, bütün mədəni və dini abidələrimizi viran qoyaraq, talayaraq, onları əsl urbisid (şəhərlərə qarşı genosid) və kultursid (mədəniyyətə qarşı genosid) nümunələrinə çevirib. Sözsüz ki, İkinci Dünya müharibəsindən sonra şəhərlərin bu miqyasda dağıdılması dünyanın heç bir yerində baş verməyib. Ermənistan bu ərazilərdə əsrlər boyu yaşayan Azərbaycan xalqının izini silməyə çalışıb. Ağdam o dərəcədə dağıntıya məruz qalıb ki, xarici mütəxəssislər onu "Qafqazın Xirosiması" adlandırırlar. Füzuli şəhəri işğaldan azad olunanda Azərbaycan Ordusu orada bir dənə də salamat bina tapa bilmirdi ki, onun üzərində bayrağımızı dalğalandırsın. Ermənistanın işğalı altında olmuş ərazilərdə 67 məsciddən 65-i yerlə-yeksan edilib, qalan ikisi isə ciddi zərər görüb. Hətta qəbiristanlıqlar belə təhqir olunub, dağıdılıb və talanıb.

Xalqımızın otuz il həsrətini çəkdiyi həmin ərazilərə böyük mənəvi bağlılığı var. Prezident İlham Əliyevin müvafiq sərəncamları ilə işğaldan azad edilmiş ərazilər üzrə şəhər günlərinin təsis edilməsi də bunun rəsmi olaraq təsdiqidir. İşğaldan azad edilmiş ərazilər üzrə şəhər günlərinin təsis edilməsi həm də böyük Qələbəmizin təbliği, gənclərdə vətənpərvərlik hisslərinin gücləndirilməsi anlamına gəlir. Bu Qələbəni heç kəs bizə hədiyyə etməyib. Onu igid hərbiçilərimiz canları, qanları hesabına qazanıblar. Xaincəsinə torpaqlarımıza soxulan düşmən cəzalandırılmalı idi və Azərbaycan Ordusu Vətən müharibəsində bunu layiqincə etdi. Müzəffər Azərbaycan Ordusu cəmi 44 gün ərzində 300-dək şəhər və kəndi bilavasitə açıq döyüşlərdə işğaldan azad etməyə nail oldu. İndi böyük qələbələrimizin sevincini yaşamağa, eləcə də azad şəhərlərimizin bayramlarını təntənə ilə qeyd etməyə Azərbaycan xalqının mənəvi haqqı var.

## Ağır işğal illərindən sonra azadlığına qovuşan Füzuli

Füzuli rayonu inzibati ərazi vahidi kimi 1827-ci il sentyabrın 10-da yaradılıb və ilkin adı Qarabulaq olub. Füzuli rayon kimi 8 avqust 1930-cu ildə təşkil edilib və tarixi adı saxtalaşdırılaraq Qaryagin adlandırılıb. 1959-cu ilin aprelində böyük Azərbaycan şairi Məhəmməd Füzulinin anadan olmasının 400 illiyi şərəfinə rayonunun adı yenidən dəyişərək Füzuli adlandırılıb. Ərazisi 1386 $km^2$, əhalisi isə təxminən 135 min nəfərdir.

Rayonda hazırda 46 inzibati ərazi dairəsi olmaqla 2 şəhər, 17 qəsəbə, 81 kənd var. Ən iri yaşayış məntəqələri Fuzuli şəhəri, Horadiz şəhəri, Böyük Bəhmənli, Horadiz və Qacar kəndləridir.

Füzuli rayonu Azərbaycanın ən qədim yaşayış məskənlərindən biridir. Füzuli şəhərindən 17 km qərbdə yerləşən məşhur Azıx mağarası və Tağlar mağarası dünyanın ən qədim insan məskəni kimi UNESKO-nun maddi-mədəni irs siyahısına salınıb.

Füzulinin 51 kəndi və rayon mərkəzi 1993-cü il avqustun 23-də ermənilər tərəfindən işğal olunub, 55 min nəfərə yaxın sakin doğma torpaqlarını tərk edib. İşğal nəticəsində 1100-dən çox füzulili şəhid olub, 113 nəfər girov götürülüb, 1450 nəfər müxtəlif dərəcəli əlillik qazanıb. Rayonun işğalı nəticəsində təsərrüfat subyektlərinə, fərdi şəxslərin mülkiyyətinə və tarix mədəniyyət abidələrinə dəyən zərərin məbləği 22 256 953 624 manatdan artıq qiymətləndirilir.

Azərbaycan Ekologiya və Təbii Sərvətlər Nazirliyinin "İşğal olunmuş Azərbaycan ərazilərində ətraf mühitə və təbii sərvətlərə dağıdıcı təsiri müəyyənləşdirən (izləyən) operativ mərkəz"i işğaldan sonrakı dövrlərdə Füzuli rayonu ərazisində təbii sərvətlərin ermənilər tərəfindən dağıdılmasına dair bir sıra faktlar aşkarlayıb. Geniş meşə massivləri ilə örtülü olan Dövlətyarlı kəndində ağaclar bütünlüklə qırılıb, Qoçəhmədli kənd yolu boyunca ağaclar kütləvi şəkildə məhv edilib, Yağlıvənd kəndində kəndarası yolun sağ və sol tərəfindəki böyük yaşıllıqlar tamamilə qırılıb, 2006-2009-cu illər ərzində rayonun 35 000 hektardan artıq ərazisi ermənilər tərəfindən yandırılıb.

İşğal illərində böyük dağıntılara məruz qalan Füzuli şəhəri 2020-ci il oktyabrın 17-də öz azadlığına qovuşub. Füzuli şəhərinin işğaldan azad edilməsi xəbərini Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev oktyabrın 17-də xalqa müraciətində çatdırıb. Dövlətimizin başçısı müraciətində həmin gün Füzuli şəhəri ilə yanaşı, rayonun Qoçəhmədli, Cuvarlı, Pirəhmədli, Musabəyli, Çimən, İşıqlı və Dədəli kəndlərinin də işğalından azad olunduğunu bildirib.

Füzuli şəhərinin işğaldan azad edilməsi uğrunda şiddətli döyüşlər gedib. Düşmənin müqavimətini qıran Azərbaycan Ordusu onu geri çəkilməyə məcbur edib, ağır məğlubiyyətə uğradıb. Azərbaycan Respublikasında "Füzulinin azad olunmasına görə" medalı təsis olunub. Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin sərəncamları ilə Füzuli rayonunun işğaldan azad edilməsi uğrunda aparılmış döyüş əməliyyatlarında iştirak edərək şəxsi igidlik və şücaət nümayiş etdirmiş Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 25167 hərbi qulluqçusu "Füzulinin azad olunmasına görə" medalı ilə təltif olunub.

## Horadiz əməliyyatı - Böyük Qələbəyə aparan yolun başlanğıcı

İkinci Qarabağ müharibəsi başlayanadək Azərbaycan Ordusu bir sıra uğurlu əməliyyatlar keçirməklə nəyə qadir olduğunu təsdiqləyib. Füzuli rayonunda yerləşən Horadiz yaşayış məntəqəsinin 1994-cü ilin yanvar ayında işğaldan azad edilməsini isə Böyük Qələbəmizə gedən yolun başlanğıcı kimi dəyərləndirə bilərik.

O dövrdə Ermənistan işğalçılarına qarşı mübarizədə Azərbaycanın hərbi-iqtisadi və insan qüvvələrinin səfərbər edilməsinə böyük ehtiyac var idi. Bu məqsədlə Prezident Heydər Əliyev televiziya və radio ilə xalqa müraciət etdi və ciddi hərbi-təşkilati tədbirlər həyata keçirdi. Prezident Heydər Əliyevin göstərişi ilə əraziyə Azərbaycan Ordusunun əlavə qüvvələri dislokasiya olundu, noyabrın ortalarında Ermənistan silahlı qüvvələrinin Beyləqan istiqamətində hücumu dayandırıldı.1994-cü il yanvarın 5-dən 6-na keçən gecə Azərbaycan Silahlı Qüvvələri Araz boyunca və Əhmədbəyli-Kürdmahmudlu-Alxanlı kəndləri istiqamətində əks hücum təşkil etdi. Azərbaycan Ordusunun müvəffəqiyyətli əməliyyatları nəticəsində 1994-cü il yanvarın 5-də Füzuli rayonunda strateji əhəmiyyətli Horadiz qəsəbəsi və 22 kənd düşməndən təmizləndi. Bunun ardınca Cəbrayıl rayonu ərazisinin bir hissəsi, Kəlbəcər rayonunda Bozlu, Təkəqaya, Babaşlar, Qanlıkənd, Çəpli, Susuzluq, Qasımbinəsi, Yanşaqbinə, Yanşaq, Bağırsaq, Qamışlı, Bağırlı yaşayış məntəqələri də düşməndən azad edildi. Çiçəkli dağı və başqa strateji yüksəkliklər ələ keçirildi, Kəlbəcər-Laçın yolunun tunelə qədərki hissəsi nəzarət altına alındı. Uğurlu Horadiz əməliyyatı nəticəsində Azərbaycan xalqının işğalçılara qarşı ədalətli mübarizəsində dönüş yaratmaq mümkün oldu.




## Daha abad, daha gözəl Füzuli inşa olunur

Ölkəmizdə işğaldan azad olunmuş ərazilərin bərpası və ora Böyük Qayıdış proqramının reallaşdırılması postmüharibə dövrünün əsaas strateji məqsədlərindən biri kimi qarşıya qoyulub və ötən 5 ildə bu hədəfə doğru inamlı addımlar atılıb. Bu gün işğaldan azad olunmuş ərazilərimizdə genişmiqyaslı abadlıq-quruculuq işləri həyata keçirilir, eyni zamanda şəhər və kəndlərin məskunlaşdırılması uğurla davam etdirlir.

İkinci Qarabağ müharibəsi başa çatdıqdan sonra Füzuli də genişmiqyaslı quruculuq-abadlıq ünvanına çevrilib. İşğaldan azad edilmiş digər yaşayış məntqələri kimi, Füzuli şəhərinin bərpası da tarixi ənənələr və müasir tələblər nəzərə alınmaqla hazırlanan plan əsasında həyata keçirilir. Xartırladaq ki, Nazirlər Kabineti "Füzuli şəhərinin 2040-cı ilədək inkişafına dair Baş planı"nı təsdiqləyib. Baş planın icrası yüksək səviyyədə təmin edilir. Yeni şəhər işğaldan əvvəlki şəhər ilə müqayisədə daha geniş əraziyə malik olacaq. Növbəti 20 ildə əhali sayı 1993-cü il ilə müqayisədə 2.5 dəfə artacaq və Füzuli şəhəri hava limanı daxil olmaqla, 1936 hektar əraziyə malik olacaq. 46 kilometr avtomobil yolları olan şəhərdə piyada, velosiped yolları 85 kilometr təşkil edəcək.

Əsasən yaşıllıqdan ibarət olan Füzuli şəhərinin mərkəzində 5 hektar ərazidə Memorial Kompleksi yaradılır. Memorial Kompleksin və şəhərin bərpasının təməli Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə 2021-ci il oktyabrın 17-də qoyulub. Şəhərdə çox mərtəbəli binalar ilə yanaşı, az və ortamərtəbəli çoxmənzilli binalar da inşa edilir. Burada həyətyanı bağ sahələri olan fərdi evlər də tikilir. "Böyük Qayıdış" Proqramının birinci mərhələsinin sonunda - 2026-cı ilin axırınadək 22 min insan Füzuli rayonunda yaşayacaq. Füzuli şəhərinə ilk köç 2023-cü ilin avqustunda reallaşdırılıb. İlk olaraq 90 nəfərdən ibarət olan 23 ailə doğma şəhərə yola salınıb.

Postmüharibə dövründə işğaldan azad edilmiş digər ərazilərdə olduğu kimi, Füzulidə də müxtəlif istiqamətlərdə bərpa işləri intensiv şəkildə davam etdirilir. Xatırladaq ki, dövlət başçısı müharibə başa çatandan sonra işğaldan azad edilmiş ərazilərə ilk səfərini 2020-ci il 16 noyabr tarixində məhz Füzuliyə edib. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva işğaldan azad olunan Füzuli rayonuna gəliblər. Bu səfər çərçivəsində Prezident İlham Əliyev Füzuli rayonundan Şuşa şəhərinə yol çəkilişi ilə bağlı göstəriş verib və Füzuli-Şuşa avtomobil yolunun - Zəfər yolunun çəkilişinə start verilib. Zəfər yolunun açılışı Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə 2021-ci il 7 noyabr tarixində baş tutub.

Bütövlükdə, indiyədək Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə Füzulidə çoxsaylı təməlqoyma və açılış tədbirləri keçirilib. Dövlətimizin başçısı 3 iyul 2025-ci il tarixində Əhmədbəyli-Füzuli-Şuşa yolunun açılışında iştirak edib. Burada mövcud yolun uzunluğu 101 kilometr, yeni yolun uzunluğu isə 81,7 kilometrdir. Yeni yol məsafəni 19,3 kilometr qısaldır. Bu yol başlanğıcını Hacıqabul-Horadiz-Ağbənd-Zəngəzur dəhlizi magistral avtomobil yolundan götürməklə Füzuli, Xocavənd, Xocalı və Şuşanı birləşdirir.

## Dünya rekordu azad Füzulidə yenilənib

Postmüharibə dövründə Füzulidə istifadəyə verilən ən böyük infrastruktur obyektlərindən biri də beynəlxalq hava limanıdır. Hava limanı 2021-ci il 26 oktyabr tarixində Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə istifadəyə verilib.

Füzuli Hava Limanının inşasında Azərbaycan dünya rekorduna imza atıb. İndiyədək beynəlxalq praktikada cəmi bir il ərzində beynəlxalq səviyyəli hava limanının inşası təcrübəsinə rast gəlinməyib. Bunu ilk dəfə Azərbaycan bacarıb.

Obrazlı şəkildə Qarabağın hava qapısı adlandırılan Füzuli Beynəlxalq Hava Limanı ən müasir səviyyədə inşa olunub. Hava limanının istənilən tip hava gəmisini qəbul etmək imkanları var. Uçuş-enmə zolağının uzunluğu 3000, eni isə 60 metrdir. Hava limanının müasir infrastrukturla təchiz olunan terminalı saatda ən azı 200 sərnişinin buraxılışına imkan verir. Burada görülən bütün işlər beynəlxalq norma və standartlara uyğun şəkildə həyata keçirilib. Hava limanının ətrafında geniş abadlıq-quruculuq işləri aparılıb. Burada avtomatlaşdırılmış sistemlərlə təchiz olunan Hava Hərəkətini İdarəetmə qülləsi tikilib. Bu isə Füzuli Beynəlxalq Hava Limanında ICAO və IATA standartlarına müvafiq qaydada uçuşların həyata keçirilməsini mümkün edir. Hava limanında baqaj konveyerləri, qeydiyyat sistemi, VIP zallar, mağazalar, restoranlar və digər zəruri məntəqələr yaradılıb. Burada sərnişinlərin rahatlığı üçün bütün meyarlar diqqət mərkəzində saxlanılıb.

İndiyədək Füzuli Beynəlxalq Hava Limanına bütün uçuşlar uğurla baş tutub. Belə ki, "Azərbaycan Hava Yolları"na məxsus ən böyük "Airbus A340-500" tipli sərnişin təyyarəsi, həmçinin "Silk Way" aviaşirkətinə məxsus ən böyük yük təyyarələrindən biri olan "Boeing 747-400" tipli hava gəmisi Füzulidə müvəffəqiyyətlə enişlər ediblər.

*Mübariz ABDULLAYEV*

# Uğurlu əməkdaşlığın növbəti parlaq təzahürü...

## III Milli Şəhərsalma Forumu Azərbaycanın müasir urbanizasiya və beynəlxalq tərəfdaşlıqda liderliyini nümayiş etdirir

Müasir dövrdə şəhərsalma siyasəti təkcə memarlıq və infrastruktur məsələsi deyil - bu, eyni zamanda, milli inkişafın strateji istiqamətlərindən biri kimi, sosial rifahın təminat mexanizmi və iqlim çağırışlarına cavab olan kompleks sistemin formalaşdırılmasıdır. Azərbaycanın milli inkişaf konsepsiyası çərçivəsində formalaşan yeni şəhərsalma metodologiyası da məhz bu yanaşmaya əsaslanır. Bu konsepsiya həm iqtisadi dayanıqlılığa, həm sosial rifaha, həm də ətraf mühitə uyğunluğa xidmət edən çoxşaxəli bir model kimi çıxış edir.

Ölkədə həyata keçirilən şəhərsalma siyasəti uzunmüddətli planlaşdırmaya, regional balanslı inkişafa və "ağıllı şəhər - ağıllı kənd" konsepsiyalarının reallaşmasına söykənir. Xüsusilə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında aparılan bərpa və yenidənqurma prosesi Azərbaycanın urbanizasiya sahəsindəki strateji baxışını və icra potensialını nümayiş etdirir. Burada söhbət yalnız dağıdılmış ərazilərin bərpasından deyil, tamamilə yeni tipli yaşayış məntəqələrinin - "yaşıl enerji", ekoloji uyğunluq, innovativ idarəetmə prinsipləri əsasında qurulan müasir şəhərlərin formalaşmasından gedir.

Bu istiqamətdə Azərbaycanın beynəlxalq tərəfdaşlıq əlaqələri də günü-gündən genişləndirilir. Adıçəkilən məqsəd ətrafında mühüm müzakirələr və toplantılar baş tutur. Yeri gəlmişkən, belə tədbirlərdən biri, 3-cü Milli Şəhərsalma Forumu oktyabrın 15-də Xankəndi şəhərində işə başlayıb. Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin Birləşmiş Millətlər Təşkilatının Məskunlaşma Proqramı ("UN-Habitat") ilə tərəfdaşlığı çərçivəsində "İqlimədavamlı və sağlam şəhərlərə doğru: regional tərəfdaşlıqlar və innovativ həllər" mövzusunda keçirilən tədbirdə 60-dan çox ölkədən 200-dən artıq xarici qonağın, ümumilikdə, 400-ə yaxın nümayəndələr - dövlət və özəl qurumların nümayəndələri, beynəlxalq təşkilatların, akademik institutların və vətəndaş cəmiyyətinin təmsilçiləri iştirak edir. Forumda münaqişə və təbii fəlakətlərdən sonrakı dayanıqlı bərpa prosesləri, mənzil təminatı və layiqli yaşayış məskənləri, dayanıqlı və sağlam şəhərlər, ekoloji və enerji üzrə effektiv təcrübələr, rəqəmsallaşma və innovativ yanaşmalar, Davamlı İnkişaf Məqsədləri və Yeni Şəhər Gündəliyi, regional və beynəlxalq tərəfdaşlıqların inkişafı kimi mövzularda müzakirələr aparılır. Bu kimi mühüm bir tədbirin Azərbaycanda keçirilməsi isə ölkəmizə olan etimadın göstəricisidir. Prezident İlham Əliyevin Üçüncü Azərbaycan Milli Şəhərsalma Forumunun iştirakçılarına ünvanladığı müraciətində bildirilir ki, Azərbaycanda üçüncü dəfə təşkil olunan və artıq ənənə halını almış bu tədbir şəhərsalma sahəsində milli, regional və beynəlxalq tərəfdaşları bir araya gətirərək təcrübə mübadiləsi aparmaq, yeni təşəbbüslər formalaşdırmaq və əməkdaşlığı gücləndirmək üçün mühüm platforma rolunu oynayır. BMT-nin Məskunlaşma Proqramı ilə əməkdaşlıq çərçivəsində keçirilən Milli Şəhərsalma Forumları Azərbaycanın bu sahədə beynəlxalq tərəfdaşlarla uğurlu əməkdaşlığının növbəti parlaq təzahürüdür.

### Genişmiqyaslı bərpa və quruculuq işləri

Azərbaycanın son 30 illik tarixində işğal amili təkcə torpaq itkisi deyil, həm də urbanizasiya mədəniyyətinin, sosial-iqtisadi infrastrukturun və tarixi-mədəni irsin məhv olmasına yol açmışdı. İşğal nəticəsində şəhər və kəndlər tamamilə viran edilmiş, yerüstü həyat izləri məhv edilmiş, mədəni abidələr dağıdılmış, ərazilər mina çirklənməsinə məruz qalmışdı. Bu proses nəticəsində bir milyondan artıq azərbaycanlı öz doğma yurdundan didərgin düşmüşdü. Lakin 2020-ci ildəki 44 günlük Vətən müharibəsində əldə edilən möhtəşəm Qələbə ölkənin yeni inkişaf səhifəsini açdı. Qarabağ və Şərqi Zəngəzur bölgələrinin azad edilməsi Azərbaycan üçün yalnız torpaq bütövlüyünün bərpası deyil, həm də şəhərsalma və regional planlaşdırma baxımından "bərpa və dirçəliş dövrü" demək oldu. Prezident İlham Əliyev müraciətində bildirib ki, bu gün Azərbaycan dövləti Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında genişmiqyaslı bərpa və quruculuq işləri həyata keçirir. Regionun ümumi planlaşdırılması başa çatıb. 13,6 min kvadratkilometr ərazini əhatə edən bu plan əsasında 1,1 milyon nəfərdən çox insanın doğma şəhər və kəndlərində məskunlaşması üçün yenidənqurma işləri icra olunur. Əhalisi 300 min nəfərdən çox olan 8 şəhər və 90 kəndin Baş planları artıq təsdiqlənib. İşğaldan azad olunmuş 6 şəhər, 2 qəsəbə və 20 kəndə insanlar geri qayıdaraq məskunlaşıb.

Artıq bu ərazilərdə meqaişlər aparılır. Bu isə təkcə bərpa deyil, həm də Azərbaycanın müasir şəhərsalma konsepsiyasının praktik təzahürüdür. Azərbaycan dünyaya sülh və inkişaf modeli təqdim etdiyi kimi, müasir şəhərsalma mədəniyyətinin yeni bir mərhələsini də təqdim edir.




Post-müharibə dövründə Qarabağ və Şərqi Zəngəzurda aparılan quruculuq işləri yalnız binaların tikintisindən, kəqd və şəhərlərin salınmasından ibarət deyil - burada yaradılan infrastruktur tamamilə dayanıqlı inkişaf prinsiplərinə əsaslanır. İnşa olunan 3 beynəlxalq hava limanı (Füzuli, Zəngilan, Laçın) regionun nəqliyyat sisteminə strateji məna verir və iqtisadi dövriyyəni canlandırır. Paralel şəkildə avtomobil və magistral yollar, dəmir yolu xətləri, enerji və rabitə infrastrukturu qurulur. Bu region, eyni zamanda, Azərbaycanın "yaşıl enerji zonası" elan edilib. Burada 10 min meqavat gücündə Günəş və külək enerjisi potensialı mövcuddur. Artıq bir neçə beynəlxalq tərəfdaşla - BƏƏ, Səudiyyə Ərəbistanı, Çin və Böyük Britaniyanın enerji şirkətləri ilə layihələr icra edilir. Bu təşəbbüslər Qarabağ və Şərqi Zəngəzuru həm enerji baxımından

### Layihələr sürətlə həyata keçirilir...

dan müstəqil, həm də iqlim dəyişikliklərinə qarşı dayanıqlı məkana çevirir. Dövlət başçısının müraciətində bildirilir ki, müasir şəhərsalma prinsiplərinin tətbiqi ilə Qarabağ və Şərqi Zəngəzur regionlarının dayanıqlı infrastrukturunun qurulması, yaşayış məntəqələrinin yenidən salınması və əhalinin qayıdışı üçün zəruri şəraitin yaradılması istiqamətində sistemli və ardıcıl tədbirlər həyata keçirilir. Burada son dörd il ərzində 3 yeni beynəlxalq hava limanı, avtomobil və magistral yolları, yeni dəmir yolu infrastrukturu inşa olunub, həmçinin yaşayış evləri, səhiyyə müəssisələri, təhsil ocaqları və digər sosial infrastrukturun tikintisi davam etdirilir: "İşğaldan azad edilmiş ərazilərin bərpası prosesində enerji infrastrukturunun yenidən qurulmasına və enerji təhlükəsizliyinin təmin edilməsinə xüsusi önəm verilir. "Yaşıl enerji" zonası elan edilmiş və 10 min meqavat "yaşıl enerji" üzrə texniki potensiala malik Qarabağ və Şərqi Zəngəzurda Günəş və külək enerjisi layihələri sürətlə həyata keçirilir. Burada "ağıllı şəhər", "ağıllı kənd" kimi innovativ yanaşmalar tətbiq edilir, ekosistem bərpa olunur".

Bildirilmədidir ki, bütün bu işlərlə yanaşı, sosial infrastrukturun - məktəblərin, xəstəxanaların, mədəniyyət mərkəzlərinin və yaşayış komplekslərinin tikintisi də paralel şəkildə aparılır. Bu, urbanizasiya modelində insan amilinin prioritet götürüldüyünü göstərir.

### Regional iqtisadi dirçəliş və məşğulluq...

Yeni şəhərsalma metodologiyasının əsas məqsədlərindən biri də əhalinin daimi məskunlaşması və iqtisadi fəallığın təmin edilməsidir. Bunun üçün Qarabağ və Şərqi Zəngəzurda sənaye parkları və iqtisadi zonalar yaradılır - Ağdam Sənaye Parkı, Cəbrayıl və Zəngilan iqtisadi zonaları bu baxımdan nümunəvidir. Bu layihələr yerli istehsalın genişlənməsinə, ixrac potensialının artmasına və minlərlə yeni iş yerinin açılmasına şərait yaradır. Müraciətdə vurğulanır ki, regionda iqtisadi inkişafın və məşğulluğun təmin edilməsi məqsədilə sənaye parkları, iqtisadi zonalar yaradılır. Bütün bunlar yerli istehsal imkanlarının genişləndirilməsi və yeni iş yerlərinin açılması ilə yaşayış məntəqələrinin dayanıqlı inkişafına töhfə verir: "Eyni zamanda, salınan yeni yol infrastrukturu sayəsində Qarabağ və Şərqi Zəngəzurun Bakı və ölkənin digər əraziləri ilə birbaşa əlaqələndirilməsi bu regionların sürətli iqtisadi və sosial inkişafına xidmət edir. Bu gün "Böyük Qayıdış" Proqramı çərçivəsində artıq 60 minə yaxın insan bu ərazilərdə yaşayır, işləyir və təhsil alır".

Yerli resurslara əsaslanan istehsal, aqrar sənaye klasterləri və xidmət sektoru Qarabağın iqtisadi strukturunun əsas dayaqlarına çevrilməkdədir. Bu, həm də "qayıdışın iqtisadi təməli" kimi çıxış edir - yəni insanların uzunmüddətli sosial inteqrasiyası üçün iqtisadi dayanıqlıq təmin edilir.

### Beynəlxalq tərəfdaşlıq və yeni urbanizasiya modeli...

Azərbaycanın şəhərsalma sahəsində əldə etdiyi təcrübə artıq beynəlxalq miqyasda tanınır. BMT-nin "Un-Habitat" proqramı, Dünya Bankı, Avropa Yenidənqurma və İnkişaf Bankı kimi qurumlar Azərbaycanın "ağıllı şəhər və ağıllı kənd" modellərini iqlimədaptiv və sosial innovativ yanaşma nümunəsi kimi təqdim edirlər. Ölkə həmçinin COP29 kimi qlobal tədbirlərə ev sahibliyi etməklə iqlim və şəhərsalma sahəsində dayanıqlı inkişaf platforması rolunu möhkəmləndirir. Azərbaycanın bu istiqamətdə beynəlxalq tərəfdaşlığı urbanizasiya siyasətinin texnoloji və elmi əsaslarını gücləndirir, eyni zamanda, milli təcrübənin dünya miqyasında paylaşılmasına imkan yaradır. Dövlət başçısının müraciətində vurğulanır ki, Azərbaycanın şəhərsalma sahəsində əldə etdiyi qabaqcıl təcrübə beynəlxalq ictimaiyyət tərəfindən böyük maraqla qarşılanır. "Ölkəmiz iqlim dəyişmələri və şəhərsalma sahəsində qlobal çağırışların həllində və innovativ yanaşmaların formalaşmasında etibarlı tərəfdaş kimi tanınır. Bu sahədə beynəlxalq əməkdaşlıq, xüsusilə də BMT-nin Məskunlaşma Proqramı ilə birgə həyata keçirilən təşəbbüslər xüsusi önəm daşıyır. 2026-cı ildə dünyanın şəhərsalma sahəsində ən nüfuzlu tədbirlərindən olan Ümumdünya Şəhərsalma Forumunun 13-cü sessiyasının Bakı şəhərində keçirilməsi qərarı Azərbaycanın beynəlxalq urbanizasiya proseslərinə verdiyi töhfənin və etibarlı tərəfdaş kimi qazandığı yüksək etimadın göstəricisidir", - deyə müraciətdə qeyd olunur.

Beləliklə, Azərbaycanın milli inkişaf konsepsiyasında formalaşan yeni şəhərsalma metodologiyası təkcə bərpa və tikinti prosesi deyil, həm də yeni həyat fəlsəfəsinin qurulmasıdır. Bu modeldə əsas hədəf - insan, təbiət və iqtisadiyyatın harmoniyasını təmin etməkdir. Qarabağ və Şərqi Zəngəzurda həyata keçirilən layihələr Azərbaycanın həm müasir, həm də dayanıqlı urbanizasiya siyasətinin real göstəricisinə çevrilib. Azərbaycan "bərpadan quruculuğa, quruculuqdan nümunəyə" keçid mərhələsini uğurla reallaşdırır və bu təcrübə regional miqyasda yeni şəhərsalma fəlsəfəsinin formalaşmasına yol açır.

*P. SADAYOĞLU*

# TÜRKPA-nın parlament diplomatiyasında rolu artır

Qloballaşan dünyada türk dövlətlərinin və xalqlarının birliyi zərurətə çevrilib. Sovetlər ittifaqı dağıldıqdan sonra türk dövlətləri ilə münasibətlər qurmaq və inkişaf etdirmək Azərbaycanın xarici siyasətində prioritet olub. Artıq bu gün türk dünyasının birliyi reallığa çevrilməkdədir. Türk Dövlətləri Təşkilatının yaranması, siyasi, iqtisadi, mədəni, o cümlədən hərbi sahələrdə əməkdaşlığın gücləndirilməsi istiqamətində qəbul olunan qərarlar türk birliyinin qlobal gücə çevrilməsi yolunda atılan addımlardır. Azərbaycan türk dövlətlərinin inteqrasiyası prosesinin sadəcə iştirakçısı deyil, həm də ən fəal təşəbbüskarlarındandır.

### Təşkilatın fəaliyyəti...

Son illər regionda və dünyada cərəyan edən qlobal siyasi-iqtisadi proseslər də türk xalqlarının birliyini aktual məsələ kimi gündəmə gətirib. Bu mənada, türk dövlətlərinin müxtəlif təşkilatlar çərçivəsində əməkdaşlığı da xüsusi vurğulanmalıdır. Belə təşkilatlardan biri Türk Dövlətləri Parlament Assambleyasıdır (TÜRKPA). Xatırladaq ki, Türk Dövlətləri Parlament Assambleyası 21 noyabr 2008-ci ildə İstanbul şəhərinin Dolmabaxça Sarayında Azərbaycan, Qazaxıstan, Qırğızıstan və Türkiyə parlament rəhbərlərinin imzaladığı sazişlə təsis olunub. 29 sentyabr 2009-cu ildə Azərbaycanın paytaxtı Bakı şəhərində TÜRKPA-nın I plenar sessiyası keçirilib. Plenar sessiyada TÜRKPA-nın Reqlamenti, Katibliyin Əsasnaməsi və Bakı Bəyannaməsi, Katibliyin daimi əsasla Bakı şəhərində yerləşməsi haqqında qərar qəbul edilib. TÜRKPA sədrliyi rotasiya üsulu ilə ildə bir dəfə bir ölkədən digərinə keçməkdədir. TÜRKPA Katibliyi Bakı şəhərində yerləşən və beynəlxalq təşkilat statusuna malik olan qurumdur.

Təşkilatın məqsədləri sırasına parlament diplomatiyası vasitəsilə dövlətlər arasında siyasi dialoqun daha da inkişaf etdirilməsinə kömək göstərmək, eləcə də tarix, mədəniyyət və dil ümumiliyinə əsaslanaraq milli qanunvericiliklərin yaxınlaşdırılması və digər məsələlərdə qarşılıqlı fəaliyyətin daha da sıxlaşdırılması daxildir. Təşkilat həm də, tərəflər arasında siyasi, sosial-iqtisadi, mədəni, humanitar, hüquqi və digər sahələrdə əlaqələrin inkişaf etdirilməsinə kömək göstərir.

Eyni zamanda, təşkilata üzv ölkələrin qanunvericiliklərinin, o cümlədən mədəni irsin və tarix, incəsənət, ədəbiyyat və digər sahələrdə türk dövlətləri üçün ümumi əhəmiyyət kəsb edən dəyərlərin qorunması və gələcək nəsillərə ötürülməsinə yönəlmiş qanunvericiliklərinin inteqrasiyası üzrə tövsiyələr vermək də TÜRKPA-nın fəaliyyətində vacib yer tutur. Bundan başqa, türk dövlətləri və digər region ölkələri arasında qarşılıqlı surətdə faydalı və bərabər hüquqlu əməkdaşlığın inkişaf etdirilməsi diqqət mərkəzindədir.



Yeri gəlmişkən, Milli Məclisin sədri Sahibə Qafarova oktyabrın 15-də TÜRKPA-nın Baş katibi Ramil Həsənin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.

### TÜRKPA mühüm platforma kimi

Sahibə Qafarova təşkilatın Baş katibini yeni fəaliyyətə başlaması münasibətilə təbrik edərək, ona gələcək fəaliyyətində uğurlar arzulayıb. Qeyd olunub ki, eyni kökdən olan, ortaq milli-mənəvi dəyərləri bölüşən xalqlarımızın birlik və həmrəyliyinin gücləndirilməsində, qardaş ölkələrimiz arasında ikitərəfli və çoxtərəfli əlaqələrin, qarşılıqlı dəstək və birgə fəaliyyətin daha da möhkəmləndirilməsində türk əməkdaşlıq təşkilatları özünəməxsus rol oynayırlar. Bu sırada TÜRKPA çərçivəsində əməkdaşlığın dərinləşməsinin əhəmiyyəti vurğulanaraq bildirilib ki, Türk Dövlətləri Parlament Assambleyası parlamentlərimizin qarşılıqlı faydalı işbirliyinin səmərəli mexanizminə çevrilib və ortaq maraqlarımızı reallaşdırmağa imkan verən mühüm platforma kimi çıxış edir.

Diqqətə çatdırılıb ki, Milli Məclis bu təşkilat çərçivəsində fəaliyyətə böyük önəm verir. S.Qafarova deyib ki, Milli Məclisin TÜRKPA çərçivəsində əməkdaşlığının, həmçinin təşkilata üzv ölkələrin parlamentləri ilə əlaqələrinin mahiyyətində Prezident İlham Əliyevin "Bizim ailəmiz Türk dünyasıdır. Bizim başqa ailəmiz yoxdur" fikri dayanır.

### Qurum beynəlxalq təşkilatlarla səmərəli əməkdaşlıq edir

Görüşdə bu təşkilatın qarşıdakı dövrdə də fəaliyyətinin səmərəli və məqsədyönlü həyata keçirilməsi ilə bağlı fikir mübadiləsi aparılıb. TÜRKPA-nın Baş katibi Ramil Həsən göstərilən etimada görə minnətdarlığını bildirərək, rəhbərlik etdiyi təşkilatın bundan sonra da fəaliyyətini genişləndirilməsi, təşkilata üzv olan qardaş ölkələrin parlamentləri arasında əməkdaşlığın daha da dərinləşdirilməsi istiqamətində səylərini davam etdirəcəyini bildirib.

Bütövlükdə, bu gün TÜRKPA həm üzv və tərəfdaş dövlətlər, həm də onların hüdudlarından kənarda böyük nüfuza malikdir. Qurum dünyanın ən mötəbər beynəlxalq təşkilatları ilə səmərəli əməkdaşlıq çərçivəsində qlobal parlament dialoqunu təşviq edir, parlament diplomatiyasının institutunun inkişafında mühüm rol oynayır. Təşkilatın təşəbbüsü ilə keçirilən çoxsaylı tədbirlər, qəbul olunmuş qərarlar, həyata keçirilən fəal parlament diplomatiyası və bütövlükdə əldə olunan nəticələr onu deməyə əsas verir ki, TÜRKPA nəinki Türk dünyasında, həmçinin daha geniş müstəvidə öz layiqli yerini tutmaqdadır.

*Nardar BAYRAMLI*

# Gəncəyə qarşı terrordan 5 il ötür...

## Hücum nəticəsində 15 nəfər həyatını itirdi, 55 nəfər yaralandı...

## Bu qanlı aktın sifarişçiləri ədalət mühakiməsi qarşısındadırlar

Müharibənin yazılmış və yazılmamış qanunları var - terrorizm, günahsız dinc insanların qətli, cəbhə bölgəsindən kənarda yerləşən şəhər və kəndlərin atəşə tutulması birbaşa müharibə cinayəti kimi tövsif olunur. Hələ Birinci Qarabağ müharibəsi dövründən saysız-hesabsız müharibə cinayətlərinə "imza atmış" Ermənistan dövləti 44 günlük müharibə dövründə də "ənənəsinə" sadiq qaldı. Bu



dövrdə Ermənistan silahlı qüvvələri yaşayış məntəqələrini, mülki insanları, kənd və şəhərləri atəşə tutmaqla özünün əsl simasını ortaya qoydu. Belə qanlı cinayətlərdən biri də 2020-ci il oktyabrın 17-də gecə saat 01.00 radələrində Gəncə şəhərinin əhalisinə qarşı edildi - Ermənistan ordusu Azərbaycanın yaşayış məntəqələrini intensiv atəşə tutmaqda davam edərək qədim Gəncənin dinc sakinlərinə qarşı növbəti terror törətdi.

Bu gün Gəncənin raket atəşinə tutulmasından 5 il ötür. Xatırladaq ki, erməni silahlı birləşmələrinin şəhəri "Skat" ballistik raketləri ilə hədəf alması nəticəsində 15 mülki şəxs ölüb, 55 nəfər yaralanıb, çoxsaylı mülki infrastruktur obyektlərinə, nəqliyyat vasitələrinə külli miqdarda ziyan dəyib. Faktla bağlı Azərbaycan Baş Prokurorluğu tərəfindən Cinayət Məcəlləsinin 100.2-ci (təcavüzkar müharibəni aparma), 120.2.1-ci (cinayətkar birlik-təşkilat tərəfindən qəsdən adam öldürmə), 120.2.4-cü (xüsusi amansızlıqla və ya ümumi təhlükəli üsulla qəsdən adam öldürmə), 120.2.7-ci (qəsdən iki və ya daha çox şəxsi öldürmə), 120.2.12-ci (milli, irqi, dini ədavət və ya düşmənçilik niyyəti ilə qəsdən adam öldürməyə cəhd), 186.3-cü (əmlakı qəsdən məhv etmə və ya zədələmə xüsusilə külli miqdarda ziyan vurmaqla törədildikdə) və digər maddələri ilə cinayət işi başlanılıb.

Qeyd edilməlidir ki, 44 günlük İkinci Qarabağ müharibəsi dövründə Ermənistan cəbhədən yüzlərlə kilometr aralıdakı, Azərbaycanın ikinci böyük şəhəri, çoxsaylı tarixi və mədəni abidələri olan qədim Gəncəni oktyabrın 4-də, 5-də, 8-də, 11-də və 17-də raket və ağır artilleriyadan atəşə tutub, nəticədə 10 qadın, 6 azyaşlı olmaqla 26 dinc sakin həlak olub, 32 azyaşlı olmaqla 175 nəfər yaralanıb. Eləcə də, 2020-ci ilin oktyabrın 17-də gecə saat 01 radələrində növbəti dəfə Cənubi Qafqazın ən böyük istilik elektrik stansiyası olan Mingəçevir Su Elektrik Stansiyasını hədəfə alındı - erməni silahlı birləşmələri cəbhə zonasından 100 kilometrdən artıq uzaqlıqdakı iri sənaye şəhəri Mingəçevirə raketlər atdı. Raketlər Ordumuzun hərbi hava hücumundan müdafiə qüvvələri tərəfindən zərərsizləşdirildi.

Bu qanlı terror hadisəsi ilə bağlı Azərbaycan xalqına müraciət edən Prezident İlham Əliyev bildirmişd: "Bu, bir daha Ermənistan rəhbərliyinin faşist mahiyyətini göstərir. Birinci dəfə deyil ki, bizim şəhərlərimiz atəşə məruz qalır və demək olar ki, hər gün Tərtər, Ağdam, Goranboy, Ağcabədi və digər şəhərlərə Ermənistan atəş açır. Bu atəş nəticəsində vətəndaşlarımız həlak olur, yaralanır, 2 mindən çox ev dağıdılıb, ya da ki, bu evlərə çox böyük ziyan vurulubdur. Ancaq bu namərd hərəkətlər Azərbaycan xalqının iradəsini qıra bilməz. Ermənistan rəhbərliyi hərbi cinayət törədir. Dinc əhaliyə atəş açmaq, özü də əməliyyat operativ raket kompleksləri vasitəsilə atəş açmaq hərbi cinayətdir. Onlar bu cinayətə görə məsuliyyət daşımalıdırlar və daşıyacaqlar. Biz isə onların cavabını döyüş meydanında veririk. Şəhidlərin, günahsız insanların qisasını döyüş meydanında alırıq və alacağıq. Biz heç vaxt mülki əhaliyə qarşı mübarizə, müharibə aparmamışıq, bundan sonra da aparmayacağıq. Biz ermənilər deyilik. Bizim öz yolumuz var, bizim öz amalımız var və bütün Azərbaycan xalqı bu amal ətrafında birləşib".




Göründüyü kimi, Ermənistan hərbi birləşmələri beynəlxalq hüququn norma və prinsiplərini, 1949-cu il tarixli Cenevrə Konvensiyaları və onların Əlavə Protokollarını, 2020-ci il sentyabrın 27-də başlayan 44 günlük Vətən müharibəsinin gedişatında əldə olunmuş humanitar atəşkəs rejiminin tələblərini pozaraq, döyüş meydanındakı ağır məğlubiyyətlərinin əvəzini çıxmaq üçün Azərbaycanın münaqişə və cəbhə zonasından uzaqda yerləşən şəhər və rayonlarındakı mülki infrastruktur obyektlərini atəşə tutub. Belə ki, erməni hərbi birləşmələri yaşayış evlərini, xəstəxanaları, tibb məntəqələrini, məktəb binalarını, uşaq bağçalarını, dövlət qurumlarının inzibati binalarını, təsərrüfat təyinatlı əraziləri hədəf seçib, müxtəlif növ silahlarla, ballistik raketlərlə, eyni zamanda, qadağan olunmuş artilleriya silahları ilə atəşə tutaraq insanlıq və sülh əleyhinə, habelə müharibə cinayətləri törədib, müharibəyə hər hansı aidiyyəti olmayan, gündəlik qayğıları ilə yaşayan mülki şəxsləri vəhşicəsinə qətlə yetirib, mülki əhaliyə, dövlət əmlakına, o cümlədən infrastruktur obyektlərinə, habelə sahibkarlıq fəaliyyəti subyektlərinə irimiqyaslı zərər vurublar.

Xatırladaq ki, müharibə dövründə Qarabağdakı erməni separatçılarının başçısı Arayik Arutunyanın özü Gəncə şəhərinə raket hücumu əmrini verdiyini etiraf etmişdi. Hazırda Arayik və digər separatçılar, günahsız insanların qatilləri Bakıda Azərbaycanın ədalət mühakiməsi qarşısında cavab verirlər.

***SADİQ***

# Qarşıdakı 4 ildə...

## 2026-2029-cu illərə dair Ortamüddətli Xərclər Çərçivəsində ölkəmizin iqtisadi artım hədəfləri əks olunub

**Maliyyə Nazirliyi tərəfindən 2026-2029-cu illəri əhatə edən Ortamüddətli Xərclər Çərçivəsi (OMXÇ) sənədi ictimaiyyətə açıqlanıb. Prezidentin 2018-ci il 24 avqust tarixli 235 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Ortamüddətli xərclər çərçivəsinin hazırlanması Qaydası"na uyğun olaraq hazırlanan OMXÇ özündə büdcə siyasətinin əsas istiqamət və hədəflərini, makro-fiskal çərçivəni, fiskal risklərin təhlili və mitiqasiya tədbirlərini, Milli Xərc Prioritetlərini, Ortamüddətli Resurs Zərfini, həmçinin icmal və dövlət büdcələrinin gəlir və xərclərinin proqnozlarını əhatə edir. Eyni zamanda, sənəddə proqram və nəticəəsaslı büdcə mexanizminə keçid islahatlarına cəlb olunan sektorlara növbəti ortamüddətli dövr üçün dövlət büdcəsindən ayrılan vəsaitlərin proqramlar üzrə bölgüsü barədə məlumatlar əks olunub.**

### 2029-cu ildə ÜDM-in həcmi 161,8 milyard manata çatacaq

2026-2029-cu illər üzrə Ortamüddətli Xərclər Çərçivəsinə əsasən, 2026-cı ilin sonuna ÜDM-in həcmi 129,2 milyard manat, o cümlədən qeyri-neft ÜDM-in həcmi 92,2 milyard manat təşkil edəcək. Ortamüddətli dövr üçün makroiqtisadi proqnozlara görə, 2026-cı ilin sonuna ÜDM-in həcmi 134,1 milyard manat, o cümlədən qeyri-neft-qaz ÜDM-in həcmi 101,7 milyard manat təşkil edəcəyi, 2029-cu ildə isə ÜDM-in 161,8 milyard manata qədər, o cümlədən qeyri-neft-qaz ÜDM-in həcminin 129,5 milyard manata qədər artacağı gözlənilir. Ortamüddətli dövrdə ÜDM-in real artım tempinin orta illik 3,5 faiz, qeyri-neft-qaz ÜDM-nin 4,9 faiz olacağı fərz edilir.

Hökumətin nikbin makroiqtisadi ssenarisinə əsasən, ölkəmizin qarşıdakı 4 il ərzində iqtisadi inkişafının əsas drayverləri qeyri-neft sektoru üzrə yığım mənbələrinin təşviqi, "kölgə iqtisadiyyatı"nın səviyyəsinin azaldılması və müxtəlif sektorlarda çalışan fiziki şəxslərin gəlir vergisi üzrə verilmiş azadolmanın müddətinin 2025-ci ilin sonunda bitməsi və bunun sayəsində yeni fiskal gəlir kanalının yaranması, habelə iqtisadiyyatın özəl və dövlət sektorunda qeyri-rəsmi məşğulluğun qarşısının alınması və gəlirlərin leqallaşdırılması nəticəsində qeyri-neft yığım mənbələrinin genişlənməsi olacaq. 2029-cu ildə ÜDM-in tərkibində qeyri-neft sektorunun payı daha da artaraq 80 faizə çatacaq, neft-qaz sektorunun payı isə 20 faizə bərabər olacaq.

### İnvestisiya qoyuluşlarında artımlar davam edəcək

Baza ssenaridə neftin bir barelinin orta illik ixrac qiyməti 2026-cı il üçün 65 dollar və 2027-2029-cu illər üçün də eyni qalacağı fərz edilir. Bununla yanaşı, 2029-cu ildən etibarən Abşeron yatağının tam gücü ilə istismarı hesabına hasilatın artması və bunun sektorun ümumi inkişafına müsbət töhfə verməsi gözlənilir.

2026-cı ildə əsas kapitala olan investisiyalarda 6,9 faiz, ortamüddətli dövrdə isə orta illik 3,9 faiz artım olacağı proqnozlaşdırılır. Neft-qaz sektoruna yönəldilən kapital qoyuluşlarında 2026-2027-ci illərdə artım proqnozlaşdırılır. Əsas kapitala investisiyaların proqnozlaşdırılması zamanı neft-qaz sektoru üzrə əsas təşkilatlardan alınmış investisiya proqnozları, dövlət büdcəsinin əsaslı xərcləri üzrə proqnozlar, o cümlədən işğaldan azad edilmiş ərazilərdə irimiqyaslı quruculuq işləri ilə əlaqədar investisiyalar, strategiya çərçivəsində qeyri-neft-qazsektoruna cəlb olunacaq birbaşa xarici investisiyaların illik 10-15 faiz artması hədəfi, habelə dövlət investisiyalarının iqtisadi səmərəliliyinin yüksəldilməsi, bank-maliyyə sektorunun maliyyə vasitəçiliyi funksiyasının gücləndirilməsi və infrastruktur layihələrində dövlət-özəl tərəfdaşlığının genişləndirilməsi nəzərə alınıb.
















### İnflyasiya azalaraq 4,2 faizə düşəcək

İqtisadiyyat Nazirliyi tərəfindən cari ilin ötən dövrü ərzində faktiki inflyasiya səviyyəsi, dünya üzrə əmtəə, o cümlədən ərzaq qiymətlərinin nisbətən aşağı düşməsi və bunun idxal qiymətlərinə təsiri, nominal effektiv məzənnə indeksinin dinamikası və məzənnənin sabit qalması fərziyyələri, tənzimlənən mal və xidmətlərin tariflərinin dəyişməsinin təsirləri nəzərə alınaraq baza ssenaridə cari il üzrə 5,4 faiz proqnozlaşdırılan orta illik inflyasiya tədricən azalaraq 2029-cu ildə 4,2 faiz olacağı gözlənilir. Proqnozlara əsasən ortamüddətli dövrdə əhalinin gəlirlərinin artaraq 2029-cu ildə 123,2 milyard manata, xərclərinin isə 120,6milyard manata qədər yüksəlməsi gözlənilir. 2026-2029-cu illər üzrə manatın ABŞ dollarına qarşı məzənnəsi sabit, cari ilin səviyyəsində götürülüb.

2026-cı il və növbəti üç ili əhatə edən ortamüddətli dövr üzrə büdcə siyasətinin məqsəd, istiqamət və hədəfləri bir sıra çağırışlar nəzərə alınmaqla müəyyən edilib. Gəlirlər üzrə siyasətin əsas istiqamətləri ölkənin iqtisadi inkişafını sürətləndirmək, rəqabət qabiliyyətini gücləndirmək, investisiya mühitini daha cəlbedici etmək məqsədi daşıyır. Bu tədbirlər çərçivəsində vergi yükünün optimallaşdırılması, sahibkarlığın dəstəklənməsi və strateji sahələrə investisiyaların təşviqi və vergi və gömrük inzibatçılığı mexanizmlərinin təkmilləşdirilməsi kimi addımlar planlaşdırılır.

### İcmal büdcənin gəlirləri 50 milyard manata çatacaq

2026-cı il üçün icmal büdcəsinin gəlirləri 2025-ci ilin təsdiq olunmuş göstəricisi ilə müqayisədə 1 milyard 18,8 milyon manat və yaxud 2,3 faiz çox olmaqla 44 milyard 969,4 milyon manat, ortamüddətli dövrün sonuna isə 6 milyard 472 milyon manat və yaxud 14,7 faiz çox olmaqla 50 milyard 422,5 milyon manat proqnozlaşdırılır. Dövlət büdcəsinin gəlirləri əvvəlki illərin faktiki icra göstəriciləri 2026-cı il vəsonrakı üç il üçün son makroiqtisadi proqnozlar (ÜDM və qeyri-neft-qaz ÜDM-in artım templəri, valyuta məzənnəsi, neft-qaz hasilatı, neft qiyməti vədigər) əsasında, hər bir tədiyə növü üzrə ayrı-ayrılıqda hesablanıb. Qeyri-neft sektoru üzrə ÜDM-də proqnozlaşdırılan artım, həmçinin "kölgə iqtisadiyyatı"nın səviyyəsinin azaldılması, fiziki şəxslərin gəlir vergisi üzrə daxilolmaların optimallaşdırılması, gəlirlərin leqallaşdırılması, elektron idarəetmənin iqtisadiyyatın əksər sahələrinə nüfuzunun artması nəticəsində şəffaflığın təmin edilməsi və nəzarətin güclənməsi növbəti illərdə büdcə gəlirlərinin tərkibində qeyri-neft-qaz gəlirlərinin payının genişlənməsinə səbəb olacaq. Beləki, 2029-cu ildə qeyri-neft-qaz gəlirlərinin dövlət büdcəsinin gəlirlərindəki payı 2026-cı ilin göstəricisi ilə müqayisədə 9 faiz-bənd artaraq 66,4 faiz, mütləq ifadədə isə 20,1 faiz artaraq 26,6 milyard manat təşkil edəcək.

### Xərclər üzrə siyasətin əsas istiqamətləri

Dövlət büdcəsinin əsas xərc istiqamətləri büdcə siyasəti qarşısında dayanan çağırışlar və sosial-iqtisadi hədəflər əsas götürülməklə ortamüddətli resurs zərfinə uyğun olaraq Milli Xərc Prioritetləri əsasında müəyyənləşdirilib. 2026-cı il üzrə dövlət büdcəsinin xərcləri 41 milyard 703,6 milyon manat proqnozlaşdırılır ki, bu da 2025-ci ilin təsdiq olunmuş göstəricisi ilə müqayisədə 296 milyon manat və ya 0,7 faiz çoxdur. Ortamüddətli dövrün sonuna isə dövlət büdcəsinin xərcləri 2025-ci ilin təsdiq olunmuş büdcəsi ilə müqayisədə 1 milyard 925,6 milyon manat və yaxud 4,7 faiz çox olmaqla 43 milyard 333,2 milyon manat proqnozlaşdırılır.

Ümumilikdə, ortamüddətli dövrdə dövlət büdcəsinin əsas xərc istiqamətləri ölkənin müdafiə qabiliyyətinin gücləndirilməsi, o cümlədən ölkə sərhədlərinin bərpası və toxunulmazlığının təmin edilməsi, ordunun maddi-texniki təchizatının müasirləşdirilməsi, ərazilərin minalardan təmizlənməsi və "Böyük Qayıdış"ın sürətli icrası prioritetlərini əks etdirir. Təkcə, OMXÇ üzrə qarşıdakı 4 ildə azad olunmuş ərazilərin yenidənqurulması və bərpasına 13,5 milyard manat vəsait ayrılması nəzərdə tutulur.

Bundan başqa, əhalinin sosial təminatının və xidmət şəraitinin, habelə müxtəlif sosial qrupların sosial müdafiəsinin daha da yaxşılaşdırılması, biznesə dəstəyin artırılması və investisiyaların davamlılığının qorunması, iqlim həlləri və "yaşıl iqtisadiyyat" quruculuğuna, bir sıra mühüm proqram və tədbirlərin icrası üçün maliyyə təminatınının gücləndirilməsi nəzərdə tutulur.

***ELBRUS CƏFƏRLİ***

# Pensiya sistemində islahatlar aparılacaq

**Maliyyə Nazirliyi tərəfindən hazırlanan "2026-2029-cu illəri əhatə edən Ortamüddətli Xərclər Çərçivəsi"ndə əksini tapan məqamlardan biri də növbəti illərdə sosial sahədə islahatlarla bağlıdır. Qeyd olunduğuna görə, hazırda ölkə əhalisinin 69,7 faizi əmək qabiliyyətli yaşda (15-65 yaş), 9,1 faizi isə 65 və daha yuxarı yaş qrupuna aiddir və qeyd olunduğu kimi dünya göstəriciləri ilə müqayisədə hazırkı vəziyyət dövlət pensiya sisteminin maliyyə dayanıqlığı baxımından qənaətbəxşdir. Lakin, növbəti bir neçə onilliklərdə ölkə əhalisinin tərkibində yaşlı əhalinin sayının və xüsusi çəkisinin artması dövlət pensiya təminatı sisteminin əsas maliyyə mənbəyi olan məcburi dövlət sosial sığorta haqqı ödəyicilərinin sayının azalmasına, nəticə etibarilə isə onun maliyyə öhdəliklərinin artmasına səbəb ola bilər.**

## Sosial sığorta prinsipləri gücləndiriləcək

Mövcud demoqrafik meyillərə əsasən, 2024-cü ildə 0,6 faiz olan əhalinin illik artım tempinin BMT-nin "Dünya Əhalisinin Perspektivləri" hesabatına görə 2050-ci ilədək kifayət qədər aşağı enəcəyi gözlənilir. Eyni zamanda, 15-64 yaş aralığında olan əmək qabiliyyətli əhalinin sayının 2030-cu illərin ikinci yarısında maksimum səviyyəyə çatacağı, daha sonra isə azalmağa başlayaraq 2050-ci ildə ümumi əhali strukturunda xüsusi çəkisinin 65,4 faizədək azalacağı proqnozlaşdırılır. Həmçinin, qarşıdakı 4 ildə 65 və daha yuxarı yaşda olan əhali qrupunda artım müşahidə olunacaq. Belə ki, 2024-cü ildə 65 yaşdan yuxarı şəxslərin əhalidə xüsusi çəkisi 9,1 faiz təşkil etdiyi halda, bu göstəricinin 2050-ci ilin sonunadək 18,1 faizə çatacağı gözlənilir.

Bundan əlavə, əhalinin iqtisadi rifah, tibbi xidmət, sosial təminatının yüksəlməsi fonunda əhalinin gözlənilən orta ömür uzunluğunun artması gözlənilir ki, bu da öz növbəsində əmək pensiyaçılarının orta pensiya ödənişi müddətinin uzanması və Fondun maliyyə yükünün artırılması ilə nəticələnir.2024-cü ildə Azərbaycanda orta ömür uzunluğu 74,6 il təşkil etmiş və mövcud artım tendensiyasının davam edəcəyi halda, BMT-in proqnozlarına əsasən 2050-ci ildə 78,6 il olacağı gözlənilir.



Bu çağırışlar fonunda, ələxsus da demoqrafik yaşlanma, qeyri-formal məşğulluq, əmək bazarındakı struktur dəyişiklikləri və qlobal çağırışlar fonunda əhalinin pensiya təminatının kəmiyyət və keyfiyyətcə artan müasir tələblərə uyğunlaşdırılması əsas prioritetlərdəndir. Bütün bunları nəzərə alaraq hökumət sığorta-pensiya sistemində maliyyə dayanıqlığının artırılması və sığorta prinsiplərinin gücləndirilməsi istiqamətində islahatları davam etdirəcək.

## DSMF-nin sərbəst vəsaitləri investisiya fəaliyyətinə cəlb ediləcək

Hökumətin yeni hədəf baxışlarına əsasən, pensiyaçıların dayanıqlı, ədalətli və etibarlı sosial müdafiəsinin təmin olunması məqsədilə sığorta-pensiya sistemində maliyyə dayanıqlığının artırılması və sığorta prinsiplərinin gücləndirilməsi istiqamətində islahatların davam etdirilməsi mühüm əhəmiyyət daşıyır və bu istiqamətdə əlavə addımlar atılacaq. Hədəf prioritetlərinə əsasən, Azərbaycanda həyata keçirilən sosial siyasətin əsas istiqamətlərindən biri əmək haqqlarının yüksəldiməsi, müxtəlif dövlət xidmətlərinə əlçatanlığın təmin edilməsi və vətəndaşlarla məmurlar arasındakı münasibətlərdə şəffaflığın artırılmasıdır.

Dayanıqlı təminat kimi sözsüz ki, dövlət büdcəsi əsas maliyyə təminatı ünvanı olacaq. Büdcədə davamlı olaraq sosial xərclərin həcminin artırılması nəzərdə tutulur.

Pensiya və sosial müdafiə sahəsində digər əsas və dayanıqlı mənbə kimi Dövlət Sosial Müdafiə Fondu (DSMF) hesab edilir. Bu konteksdə ortamüddətli dövrdə fondun gəlirlərinin və xərclərinin artım dinamikası də nəzərdə tutulur. Fondun vəsaitlərinin davamlı olaraq artacağı və yaxın 4 ildə 10 milyard manata çatacağı fərz edilir. Hazırda DSMF-nin büdcəsi 7,7 milyard manat təşkil edir. Mövcud situasiya təsdiq edir ki, Fondun büdcəsindəki artımlar nəzərdə tutulan xərcləri tam bağlayır, hətta hər rüb əhəmiyyətli həcmdə sərbəst vəsaitlər qalır. Bu baxımdan DSMF-nin sərbəst vəsaitlərinin investisiya fəaliyyətinə cəlb edilməsi istisna edilmir. Bu siyasət pensiya sisteminin uzunmüddətli sabitliyi və gələcək maliyyə davamlılığının təmin olunmasında vacib alət kimi nəzərdə tutulur.

*E.CƏFƏRLİ*

# 14 ölkədən olan məruzəçilərin iştirakı ilə...

## Bakıda mühüm konfrans keçirildi

Oktyabrın 15-də "Enerji, qida, ətraf mühit və iqlim təhlükəsizliyi sahəsində çağırışlar" mövzusunda beynəlxalq konfrans işə başlayıb. Tədbir Elm və Təhsil Nazirliyinin və ETN Molekulyar Biologiya və Biotexnologiyalar İnstitutunun təşkilatçılığı ilə keçirilib. 14 ölkədən 140-dan çox məruzə müəllifinin iştirakı ilə keçirilən bu konfrans qlobal elmi əməkdaşlıq üçün mühüm platformadır.

Beynəlxalq konfransın keçirilməsində məqsəd elmi tərəfdaşlıq üçün strateji planların hazırlanması, gələcək tədqiqat istiqamətlərinin müəyyənləşdirilməsi, "yaşıl enerji" və təmiz mühitə keçid üçün innovativ həllərin paylaşılması, cəmiyyətin və iqtisadiyyatın dayanıqlılığını təmin edən yeni elmi yanaşmaların formalaşdırılmasıdır. Konfrans bu gün - oktyabrın 17-də başa çatır.

## COP29 elmi təfəkkürdə də yeniliklər yaradıb



Açılış mərasimində AMEA-nın prezidenti akademik İsa Həbibbəyli konfransın mövzusunun ötən il Azərbaycanın yüksək səviyyədə ev sahibliyi etdiyi COP29 proqramının əsas müddəaları ilə səsləşdiyini qeyd edib. O, bildirib ki, COP29 Azərbaycanda cəmiyyət həyatının müxtəlif sahələrinə, ictimai həyata, iqtisadiyyata təsir etdiyi kimi, elmi təfəkkürdə də yeniliklər yaradıb: "Azərbaycanda COP29 tədbiri çərçivəsində və ondan sonrakı dövrdə yaşıl iqtisadi zona, "yaşıl enerji", yaşıl energetika, yaşıl texnologiya, yaşıl transformasiya kimi anlayışlar artıq elmi istiqamətlər olmaqdan daha çox reallığın ifadəsinə çevrilib. Beynəlxalq konfransın Azərbaycan təcrübəsinin daha dərindən öyrənilməsinə, səmərəli elmi əməkdaşlıq əlaqələrinin qurulmasına, ortaq layihələrin və yeni ideyaların meydana çıxmasına təkan verəcəyinə əminik".

## Ərzaq sabitliyində əldə olunan nailiyyətlər...

Sonda AMEA-nın vitse-prezidenti, Molekulyar Biologiya və Biotexnologiyalar İnstitutunun direktoru, akademik İradə Hüseynova bildirib ki, dünyada hazırda aparılan çoxsaylı tədqiqatlar göstərir ki, enerji, ərzaq və iqlim sabitliyinin təminində süni intellekt, maşın öyrənməsi, bioinformatika, sintetik biologiya və nanotexnologiyalar getdikcə daha həlledici rol oynayır: "Modern biokatalizatorların və nanosəviyyəli çoxfunksiyalı materialların dizaynı həm enerji istehsalında, həm də ətraf mühitin bərpasında yeni dövrün əsasını qoyur. Eyni zamanda, biotexnoloji üsullarla istehsal edilən bioyanacaqlar, hidrogen iqtisadiyyatı, karbon emissiyalarının azaldılması və dayanıqlı kənd təsərrüfatı sistemlərinin yaradılması istiqamətində çoxşaxəli tədqiqatlar aparılır.

Azərbaycanda son illər dövlətin dəstəyi ilə bu sahələrdə mühüm elmi və praktik nailiyyətlər əldə edildiyini vurğulayan akademik deyib: "Qarabağ və Şərqi Zəngəzurda yaradılan "yaşıl bölgə" modeli həm enerji, həm də ekoloji təhlükəsizliyin təminində unikal təcrübə kimi beynəlxalq maraq doğurur. Rəhbərlik etdiyim institut tərəfindən kənd təsərrüfatı bitkilərində stres amillərinə davamlılığı artıran genetik mexanizmlərin tədqiqi, antioksidant müdafiə sistemlərinin molekulyar səviyyədə izahı və biomarkerlərin müəyyənləşdirilməsi, seleksiya fəaliyyətlərində rəqəmsal texnologiyaların tətbiqi istiqamətlərində əhəmiyyətli nəticələr əldə olunub.

Bu gün rəqəmsal texnologiyaların və süni intellektin tətbiqi ilə aqrobiotexnologiyada, torpaq və su ehtiyatlarının idarə olunmasında, həmçinin iqlim modelləşdirməsində yeni metodoloji yanaşmalar formalaşmaqdadır.

Azərbaycan alimləri müvafiq istiqamətlərdə FAO, ICARDA, CIMMYT, "Bioversity International" və digər beynəlxalq qurumlarla strateji tərəfdaşlığı dərinləşdirirlər".

## Genişmiqyaslı layihələr icra olunur

Daha sonra Elm və Ali Təhsil üzrə Dövlət Agentliyinin direktor müavini, AMEA-nın müxbir üzvü, professor Əminağa Sadıqov çıxış edərək ətraf mühit və iqlim təhlükəsizliyinin dünyada aktual elmi və praktiki problemlərdən biri olduğunu söyləyib. O, bu problemlərin həllinin qlobal səviyyədə dərin və fənlərarası yanaşmaların tətbiqini tələb etdiyini vurğulayıb. Bildirib ki, bu məqsədlə dünyanın bir sıra inkişaf etmiş ölkələrində müxtəlif elmi platformalar formalaşdırılır, genişmiqyaslı layihələr icra olunur.

Ə.Sadıqov vurğulayıb ki, Elm və Təhsil Nazirliyi dövlət siyasətinin prioritetlərinə uyğun olaraq dayanıqlı inkişafın təmin edilməsi, bərpaolunan enerji mənbələrindən səmərəli istifadə, ekoloji problemlərin azaldılması və s. istiqamətlərdə kompleks tədbirlər planı həyata keçirir. Nazirlik bu məqsədlə elmi-tədqiqat layihələrini, beynəlxalq və respublika səviyyəli konfransları, həmçinin müxtəlif təşəbbüsləri dəstəkləyir. Eyni zamanda, təhsil sistemində dayanıqlı inkişaf prinsiplərinin tədrisə inteqrasiyası məqsədilə dərslik və tədris proqramlarında müvafiq dəyişikliklər edilir.

## Süni intellektin ərzaq sabitliyindəki rolu

İ.Hüseynova qeyd edib ki, sözügedən konfransın keçirilməsi təkcə aktual deyil, həmçinin strateji zərurətdir: "Ümidvaram ki, burada səslənəcək məruzələr və müzakirələr gələcəyin elmi xəritəsini müəyyənləşdirəcək. Dünyada aparılan çoxsaylı tədqiqatlar göstərir ki, enerji, ərzaq və iqlim sabitliyinin təmin edilməsində süni intellekt, maşın öyrənməsi, bioinformatika, sintetik biologiya və nanotexnologiyalar getdikcə daha həlledici rol oynayır. Modern biokatalizatorların və nanosəviyyəli çoxfunksiyalı materialların dizaynı həm enerji istehsalında, həm də ətraf mühitin bərpasında yeni dövrün əsasını qoyur. Eyni zamanda, biotexnoloji üsullarla istehsal edilən bioyanacaqlar, hidrogen iqtisadiyyatı, karbon emissiyalarının azaldılması və dayanıqlı kənd təsərrüfatı sistemlərinin yaradılması istiqamətlərində çoxşaxəli tədqiqatlar aparılır"

*Yeganə BAYRAMOVA*

# Hər yemək bir tarix, bir ənənədir...

## Azərbacyan mətbəxinin mədəniyyətimzidəki rolu

Azərbaycan xalqının adət-ənənələri illər boyu təkmilləşərək formalaşıb, hər bir mərasim öz dərin məzmunu ilə yaddaşlara həkk olunub. Ailə, dostluq, vətənə sevgi kimi dəyərlər xalqın sosial həyatını zənginləşdirib və onu bir arada saxlayan ən vacib amillərdən olub. Xüsusilə, Azərbaycan mətbəxi, musiqisi, rəqsləri, geyimləri və digər ənənəvi sənət nümunələri, yalnız bir xalqın mədəniyyətini deyil, həm də geniş bir coğrafiyanı və zamanın sınaqlarına qarşı göstərilən müqaviməti simvollaşdırır.

Xalqımızın tarixi, mədəniyyəti və həyat tərzinin canlı ifadələrindən biri kimi Azərbaycan mətbəxinin özünəməxsus yeri var. Zəngin mətbəximiz həm də xalqın minilliklər boyu keçdiyi mədəni təcrübənin bir yansımasıdır. Bu mətbəx xalqın hər bir mərasimini, gündəlik həyatını və mədəni kimliyini simvollaşdırır. Hər yemək, bir hekayə, bir ənənə, bir tarix daşıyır...

**Məqalə "Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi"nin maliyyə dəstəyi ilə "Azərbaycanın dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliği" istiqaməti üzrə hazırlanmışdır**

### Musiqi və yeməklərin sintezi...

Azərbaycan mətbəxinin tərtibatı və təqdimatı da özündə bir sənət təmsil edir. Bu, təkcə yeməyin ləzzəti ilə bağlı deyil, həm də onun təqdimatında olan gözəllik və harmoniya ilə bağlıdır. Həmçinin, Azərbaycan mətbəxi ilə bağlı bir çox mahnı və nəğmələr mövcuddur.

### "XIX əsr İrəvan mətbəxi"

Dünən "XIX əsr İrəvan mətbəxi" kitabının təqdimatı keçirilib. Kitab Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin "XIX əsr İrəvan mətbəxi" qrant layihəsi çərçivəsində Azərbaycan Milli Kulinariya Assosiasiyası tərəfindən ərsəyə gətirilib.

Agentlikdən bildirilib ki, tədbir həm də 20 Oktyabr - Beynəlxalq Kulinariya Gününə həsr edilib. Tədbirdə 150 nəfərə qədər alim, mütəxəssis, tələbə və ictimai xadim iştirak edib. Tədbirdə çıxış edənlər kitabın əhəmiyyətindən bəhs ediblər.

Həmçinin Dövlət Məşğulluq Agentliyinin Azərbaycan Milli Kulinariya Assosiasiyasındakı aşpazlıq və qənnadıçılıq kurslarının müdavimləri, Texnika və Texnologiyalar üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzinin şagirdləri İrəvan mətbəxinə aid yemək və şirniyyatları sərgiləyiblər. Onlar sertifikatlarla təltif ediliblər. Sonda kitabların imzalanma və paylanma mərasimi olub.




### Mətbəximiz qlobal mədəniyyətlər sırasında

Bu gün Azərbaycan mətbəxi yalnız yerli səviyyədə deyil, beynəlxalq aləmdə də tanınır və qiymətləndirilir. Dünyanın müxtəlif ölkələrində Azərbaycan mətbəxinin yeməkləri təqdim edilir. Bu, həm milli kimliyimizin tanıdılması, həm də mədəniyyətimizin zənginləşdirilməsi baxımından mühüm əhəmiyyət kəsb edir.

Azərbaycan mətbəxinin təqdimatı yalnız ləzzətli yeməklərin hazırlanması deyil, həm də xalqın tarixi və mədəniyyətinin dünyaya çatdırılmasıdır. Mətbəx, sadəcə bir qida mədəniyyəti deyil, həm də Azərbaycan xalqının dərin irsinin bir hissəsidir.

### 85 mənbədən istifadə olunub

Qeyd edək ki, Azərbaycan Milli Kulinariya Assosiasiyasının prezidenti Tahir Əmiraslanov və Aynurə Əmiraslanova tərəfindən hazırlanan kitab Qərbi Azərbaycan ərazisində yüzilliklər boyu formalaşan və ermənilər tərəfindən özününküləşdirilməyə çalışılan ölkəmizin milli kulinariya incilərinin, yemək və şirniyyatların reseptlərinin bərpasını və tarixi-etnoqrafik tədqiqatını əhatə edir. Kitab 208 səhifədən ibarət nəşrdə 85 mənbədən istifadə edilməklə, 1884-cü ildə İrəvanda doğulmuş, 1913-1922-ci illərdə orada yemək və şirniyyat dükanının sahibi olmuş usta Əliqulu Zeynalovun əlyazması əsasında bərpa edilib. Nəşrdə 97 xörək, şirniyyat, içki növləri haqqında məlumatlar, hazırlanma qaydaları, fotolar, miniatürlər, rəsmlər, dövlət poçt markaları əksini tapıb. Kitabın üz qabığı rəssam Nigar Əliyevaya məxsusdur. Bu nəşr həm alimlər, tədqiqatçılar, mədəniyyət işçiləri, həm də milli mətbəximizi öyrənmək istəyən kulinariya həvəskarları üçün əvəzsiz mənbədir. "XIX əsr İrəvan mətbəxi" kitabı həm də İrəvandakı tarixi varlığımızın bir sübutudur.

Göründüyü kimi, Azərbaycan mətbəxi tarix və mədəni irsimizin bir parçası olaraq, xalqımızın keçmişi ilə bu gününü birləşdirən, gələcəyə ötürülməsi lazım olan zəngin bir mirasdır. Hər yemək, hər ləzzət, hər qida simvolik olaraq Azərbaycanın çoxşaxəli mədəniyyəti və tarixinin bir hissəsidir. Bu, bir xalqın tarixi və həyat tərzini, onun köklərini, dəyərlərini, ənənələrini əks etdirən bir sənətdir. Bütün bunlar isə Azərbaycan mətbəxinin yalnız bir qida növü deyil, həm də milli kimliyin, həyatın və insanın özünü ifadə etməsinin vasitəsidir.

*Yeganə*

# Ukrayna üçün "Qələbə Fondu"...

## Vəsait haradan toplanacaq?



Dünyanın bir çox bölgələrində münaqişələri bitirən, sülh, sabitlik və əmin-amanlığı təmin edən, xüsusilə də qlobal dünyada yeni təhlükəsizlik sistemi formalaşdıran Tramp Rusiya-Ukrayna münaqişəsinin nizamlanması istiqamətində səylərini artırmaqdadır. Belə demək mümkünsə, Ağ Ev rəhbəri Ukraynada müharibəyə son qoymaq üçün yeni planlar üzərində işləyir. Bu planlar özündə Rusiyaya qarşı təzyiqləri artırmaq, Moskvanın iqtisadi imkanlarını məhdudlaşdırmaq və Kremli sülhə məcbur etmək missiyasını ehtiva edir. Belə ki, Tramp Ukraynaya daha güclü hərbi dəstək göstərmək üçün "Qələbə Fondu" yaratmağı planlaşdırır - yaxın zamanda Çinə qarşı tətbiq olunacaq yüksək həcmli rüsumlardan əldə olunacaq gəlirlər bu fondun hesabına yatırılacaq. "The Telegraph" nəşri qeyd edir ki, Tramp maliyyə naziri Skott Bessentə Ukrayna Prezidenti Volodimir Zelenskinin Vaşinqtona səfərindən öncə planı avropalı həmkarlarına təqdim etməyi tapşırıb. Nəşrin məlumatında qeyd olunur ki, Trampın bu planında Çindən idxala 500 faizlik rüsumun tətbiq edilməsi və əldə olunan vəsaitin Ukrayna ordusu üçün silah alınmasına yönəldilməsi nəzərdə tutulub. Eyni zamanda bildirilib ki, sözügedən plan Rusiyanın xarici iqtisadi imkanlarını və maliyyə resurslarını məhdudlaşdırmaq, ən əsası da rus ordusunun Ukraynada vəziyyətini daha da ağırlaşdırmağı hədəfləyir.

**Bir güllə ilə iki hədəfə nail olmaq**

Məsələ ilə bağlı politoloq Tural İsmayılov "Yeni Azərbaycan" qəzetinə şərhində qeyd edib ki, son zamanlar Trampın Rusiya və Çinə qarşı atdığı addımlar hər iki ölkəni ABŞ-ın maraqlarını və şərtlərini nəzərə almağa vadar etməyə hədəflənib. Ekspertin sözlərinə görə, bu təşəbbüsün əsas məqsədi Moskvaya maksimum iqtisadi təzyiq göstərmək və onun müharibə maşınını dəstəkləyən Çin yardımlarını məhdudlaşdırmaqdır. "Bu plan Trampın siyasi-diplomatik təzyiq vasitəsidir, yəni Trampın məqsədi Rusiyanın xarici iqtisadi imkanlarını kəskin daraltmaq, o cümlədən Kremli Ukraynada müharibəni dayandırmağa və atəşkəsə məcbur etməkdir. Çinə gəlincə, Trampın Pekinə yüksək rüsumlar tətbiq etməkdə məqsədi ikiqatdır: bir tərəfdən Pekini Rusiyaya maddi və iqtisadi dəstək göstərməkdən çəkindirmək, digər tərəfdən isə Çinlə ABŞ arasında ticarət və iqtisadi müharibəni sərtləşdirərək Vaşinqtonun strateji üstünlüyünü qorumaqdır. Çindən yeni rüsumlarla toplanacaq vəsaitin Ukraynanın müdafiəsinə yönəldilməsi isə həm Putinə, həm də Pekinə diplomatik siqnal kimi qiymətləndirilir", - deyə T.İsmayılov vurğulayıb ki, Tramp bu addımına Avropa ölkələrindən dəstək gözləyir; "Avropada Çinlə iqtisadi əlaqələrə görə bu təşəbbüsün tam dəstəklənməsi hələ müzakirə mərhələsindədir. Avropa ölkələrinin Trampın planına qoşulması həm Ukrayna ordusunun silahlandırılması, həm də Rusiyaya qarşı birgə iqtisadi təzyiqin gücləndirilməsi baxımından vacib amildir". Ekspert əlavə edib ki, Pekin ABŞ-ın qarşısında əyilməyəcək, amma Rusiya ilə bağlı mövqeyini nəzərdən keçirə bilər. "Pekinin belə sərt rüsum siyasəti qarşısında Vaşinqtonla razılığa gəlməsi hazırkı nüfuz mübarizəsi və iqtisadi-siyasi təzyiqlər fonunda çətin görünür. Çin Rusiyanı dəstəkləməkdən imtina etməyib, amma ABŞ-ın ticarət təzyiqlərinin artması Pekini mövqeyini nəzərdən keçirməyə vadar edə bilər. Bu baxımdan Vaşinqtonun siyasi-ticari manevrləri davam edir".

**Avropa da Trampın fonduna vəsait yatıracaq?**

T.İsmayılov hesab edir ki, Avropa ölkələri Trampın "Qələbə Fondu" təşəbbüsünə qoşulmaqla Ukraynaya maliyyə və hərbi yardımın artırılmasında əsas tərəfdaş rolunu oynaya bilərlər. "Bununla belə, Avropa içərisində Çinlə ticarət əlaqələrinə görə bu addıma tərəddüd edən qüvvələr mövcuddur. Amma ABŞ və NATO müttəfiqləri arasında razılıq əldə olunarsa, fondun genişləndirilməsi və Ukraynanın döyüş qabiliyyətinin artırılması mümkün olacaq - Ukrayna müharibəsinin gedişatı dəyişə bilər, lakin bu, strateji və iqtisadi mübarizənin nəticəsindən asılı olacaq".

*Yunis ABDULLAYEV*

# Qəzzanın bərpası necə həyata keçiriləcək?

## BMT tələb olunan məbləği açıqladı - 70 milyard dollar

Oktyabrın 13-də Misirin Şarm əl-Şeyx şəhərində keçirilən Yaxın Şərq Sülh Sammitində Amerika Birləşmiş Ştatlarının (ABŞ) Prezidenti Donald Trampın təşəbbüsü və siyasi iradəsi, həmçinin beynəlxalq birliyin dəstəyi sayəsində sülh razılaşmasının imzalanması Qəzza bölgəsi və bütün Yaxın Şərq coğrafiyası üçün ümid işığı kimi görünür. Qeyd edək ki, atəşkəsin bərpası HƏMAS və İsrailin Trampın təklif etdiyi 20 bəndlik sülh planının birinci hissəsini qəbul etdikdən sonra baş tutub. Sənədi Misir Prezidenti Əbdülfəttah əs-Sisi, Qətər əmiri Şeyx Təmim bin Həməd əl Tani, ABŞ Prezidenti Donald Tramp və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan imzalayıblar.

"Onlar həmişə deyirdilər ki, Üçüncü Dünya müharibəsi Yaxın Şərqdə başlayacaq, lakin bu baş verməyəcək", - deyə Donald Tramp imzalama mərasimində bildirib. O vurğulayıb ki, münaqişə dayanmalıdır. ABŞ lideri bu razılaşmanı "ən çətin" hesab etdiyini də dilə gətirib.

Artıq sənəddə yer alan müddəaların icrasına start verilib. Atəşin dayandırılmasından sonra qarşıda duran ən vacib məsələlərdən biri isə tamamilə dağıdılmış Qəzzanın bərpası və orada insanların yaşaması üçün zəruri şəraitin yaradılmasıdır.

### Tamamilə dağıdılmış regionda əsl quruculuq

Qəzzada 7 oktyabr 2023-cü il tarixində HƏMAS-la İsrail arasında başlayan qanlı savaş Yaxın Şərq və bütövlükdə dünya üçün böyük fəlakət idi. İki il ərzində regionda insanlıq faciəsi yaşanıb. Qəzzada 60 mindən çox insan həyatını itirib. Humanitar böhran son həddə çatıb. Göz önündə xarabazarlığa çevrilmiş ərazilər üzanır. Uşaqlar, böyüklər ac-yalavac vəziyyətdədirlər, onlar ən zəruri səhiyyə xidmətlərindən məhrum qalıblar, daldalanmağa yerləri yoxdur.

Bir sözlə, yerlə-yeksan edilmiş Qəzzanın bərpasını sıfırdan həyata keçirmək lazım gələcək. Zəruri infrastruktur qurulmalı, yaşayış evləri tikilməli, iş yerləri yaradılmalıdır. Bunun üçün isə böyük həcmlərdə maliyyə vəsaiti tələb olunur. Bunu elə Yaxın Şərq Sülh Sammitində Donald Trampın özü bildirib. "Qəzzaya çoxlu pul gələcək və çoxsaylı yenidənqurma və tikinti işləri aparacağıq", - deyə ABŞ Prezidenti yekun bəyanatında bildirib. O vurrğulayıb ki, bu yenidən qurmaq deyil, əsl quruculuq olacaq. "Təmizləmə və tikinti işləri aparılacaq. Mən böyük sərvətə, gücə və ləyaqətə malik olan çoxsaylı ölkələrin məhz bu gün və son bir həftə ərzində mənim yanıma gəlib Qəzzanın yenidən qurulmasına kömək etmək istədiklərini, lazım olan hər şeyə hazır olduqlarını bildirməkdən məmnunam. Bu, əlbəttə ki, çox puldur, lakin nəhəng ölkələrin sərvəti ilə müqayisədə böyük deyil", - deyə Tramp əlavə edib.



"Müharibənin sona çatdırılması üzrə plana əsasən, Misir yaxın vaxtlarda Qəzzanın yenidən qurulması və inkişafı üzrə beynəlxalq konfrans keçirməyi planlaşdırır".
Bu fikri isə Misir Prezidenti Əbdülfəttah əs-Sisi ifadə edib. "Bu konfrans fələstinlilərə öz torpaqlarında həyat şəraiti yaratmaq və onlara ümid vermək məqsədini güdür. Sülh yalnız dağıntıdan sonra inşa etmək üçün əl uzadıldıqda tamamlana bilər", - deyə əs-Sisi vurğulayıb.

### Koordinasiya Mərkəzi yaxın günlərdə fəaliyyətə başlayacaq

Əlbəttə, praktiki müstəvidə Qəzzanın bərpasına başlamazdan öncə təşkilati məsələlər həllini tapmalıdır. Burada koordinasiyalı fəaliyyətlərin həyata keçirilməsi zəruridir. Bu günlərdə "ABC News" mənbələrə istinadən ABŞ-in rəhbərlik etdiyi Qəzza zolağının bərpası və atəşkəsin monitorinqi üzrə Koordinasiya Mərkəzinin yaxın günlərdə fəaliyyətə başlayacağını bildirib.

Məlumata görə, mərkəz Qəzzanın şimal-şərqində, İsrail ərazisində yerləşəcək. Onun dəqiq yeri açıqlanmır. Sadəcə məlumdur ki, mərkəz İsrailin hərbi bazasında yerləşməyəcək. Fələstin anklavının bərpasında iştirak edən digər ölkələrin rəsmiləri də mərkəzə çıxış əldə edəcəklər. Mərkəzə amerikalı general rəhbərlik edəcək.

Suallardan biri də Qəzzanın bərpasının hansı pullarla və hansı dövlətlər tərəfindən aparılacağı ilə bağlıdır. ABŞ-ın vitse-prezidenti Cey Di Vens bildirib ki, Yaxın Şərqdəki qarşıdurmanın sona çatmasından sonra Qəzza sektorunun bərpasına ən böyük iqtisadi dəstəyi ərəb ölkələri göstərəcək. Vitse-prezidentin sözlərinə görə, ərəb ölkələri Qəzzanı bərpa etməkdə maraqlıdırlar ki, orada yaşayan hər kəs təhlükəsiz və rahat şəraitdə yaşaya bilsin. Bildirilib ki, bərpa işləri həm infrastrukturun yenidən qurulmasını, həm də humanitar yardımların təşkili və sosial xidmətlərin bərpasını əhatə edəcək.

### Qəzzanın bərpasına nə qədər pul tələb olunur?

Qəzza zolağının yenidən qurulması 70 milyard dollar xərc tələb edəcək. Bu barədə BMT-nin İnkişaf Proqramının (BMTİP) Fələstin xalqına yardım proqramı üzrə administratorunun xüsusi nümayəndəsi Yako Silliers bildirib. "BMT, Avropa İttifaqı və Dünya Bankı tərəfindən birgə aparılan zərərin və ehtiyacların operativ qiymətləndirilməsinə əsasən, Qəzzanın bərpası üçün təxminən 70 milyard dollar tələb olunacaq", - deyə o, Cenevrədə keçirilən brifinqdə vurğulayıb.

Bununla yanaşı, Silliers bərpa işlərinin nə vaxt başa çatacağı ilə bağlı müddəti qiymətləndirməkdən imtina edib. Onun sözlərinə görə, yuxarıda qeyd olunan təşkilatların vəzifəsi, dağıntıların miqyasını müəyyənləşdirməklə yanaşı, hansı bölgələrin ilk növbədə bərpa edilməsi və səylərin hara yönəldilməsi ilə bağlı prioritetləri müəyyən etməkdir. "Ehtimal ki, bütün ərazilər bərpa edilməyəcək", - deyə o bildirib.

### Alternativ "Ərəb planı"

Qəzzanın bərpası ilə bağlı "Ərəb planı" adlandırılan layihə də mövcuddur. Bu plan bir neçə ay bundan əvvəl Ərəb Dövlətləri Liqasının sammitində elan olunub. Ərəb liderləri Qəzza zolağının bərpası və gələcəkdə Fələstin Administrasiyasının (FA) bölgəyə nəzarətini təmin etmək üçün 53 milyard dollar (42 milyard funt sterlinq) dəyərində planı təsdiqləyiblər.

Bu plan Donald Trampın əvvəllər Qəzza ilə bağlı irəli sürdüyü daşınmaz əmlak layihəsinə alternativ olaraq təqdim edilib. Xatırladaq ki, ABŞ Prezidentinin layihəsi Qəzzadan əhalinin məcburi köçürülməsini nəzərdə tuturdu və bu, beynəlxalq ictimaiyyət tərəfindən etnik təmizləməyə dəstək kimi qiymətləndirildi.

Qahirədə keçirilən Ərəb Dövlətləri Liqasının sammitində təqdim edilən "Ərəb planı" fövqəladə humanitar yardımı, dağıdılmış infrastrukturun bərpasını və uzunmüddətli iqtisadi inkişafı hədəfləyir. Misir prezidenti Əbdülfəttah əs-Sisi sammitdəki çıxışında bildirib ki, hökumətinin təqdim etdiyi bərpa planı fələstinlilərə öz torpaqlarında qalmaq imkanı yaradacaq. Birləşmiş Millətlər Təşkilatının baş katibi Antonio Quterreş isə dünya təşkilatının bu təşəbbüsün həyata keçirilməsində "tam əməkdaşlığa hazır" olduğunu bildirib.

*Mübariz FEYİZLİ*

# "Dronlar divarı" yaradılır

## "Ramştayn" formatının 31-ci toplantısında vacib qərarlar qəbul olunub

**Ukraynanın Müdafiəsi üzrə Təmas Qrupunun ("Ramştayn" formatı) son- 31-ci toplantısında Kiyevə müttəfiqləri tərəfindən dəstəklə bağlı yeni qərarlar qəbul edilib. Toplantıda bu ölkədə "Dronlar divarı"nın yaradılması, konkret olaraq daha çox pilotsuz uçuş aparatları istehsalı və s. məsələlər müzakirə olunub.**

### PURL təşəbbüsü nədir?

NATO-nun Baş katibi Mark Rutte görüşdən sonra bəyan edib ki, alyansa üzv ölkələrin yarıdan çoxu ABŞ-dan Ukrayna üçün silah alınmasını nəzərdə tutan Prioritetləşdirilmiş Ukrayna Tələblər Siyahısı (Prioritized Ukraine Requirements List, PURL) proqramına qoşulmağa hazır olduqlarını bildiriblər: "Yalnız ABŞ-ın verə biləcəyi silah növləri var və onların alternativi yoxdur. Bu, PURL təşəbbüsü deyilən təşəbbüsdür. Biz iclasa başlayanda altı NATO ölkəsi bu təşəbbüsdə iştirak edirdi, lakin görüşdən sonra alyans ölkələrinin yarıdan çoxu ona qoşulmağa hazırdır". O qeyd edib ki, ümumilikdə 19 NATO ölkəsi ABŞ-dan və ya ikitərəfli qaydada alınan yeni silahları Ukraynaya tədarük etmək niyyətini vurğulayıb.

Ukraynanın müdafiə naziri Denis Şmıqal da "Ramştayn" formatında Ukraynanın müdafiəsi məsələlərinə dair Təmas Qrupunun 31-ci iclasında tərəfdaşlar qarşısında çıxışında səslənən prioritetləri açıqlayıb. Müdafiə naziri bəyan edib ki, tərəfdaşlar qarşısında çıxışı zamanı o, üç əsas prioritet üzərində dayanıb. Bu, PURL təşəbbüsü - Amerika istehsalı təchizatın məqsədyönlü maliyyələşdirmə vasitəsilə Ukraynanı kritik ehtiyac duyulan silahlarla təmin etməyə imkan verən ABŞ-NATO təşəbbüsüdür: "Biz təşəkkür edirik və yeni dövlətlərin qoşulmasını alqışlayırıq. Bu il üçün PURL hərəkət planı tam şəkildə həyata keçirilməlidir. Biz vaxtında çatdırılmaların təmin edilməsi üçün davamlı koordinasiyaya və maliyyələşdirməyə güvənirik. Gələn il PURL ehtiyacları 12 milyard dollardan 20 milyard dollara çatacaq".

### 2026-cı ilə qədər 20 milyon dron istehsalı...

Onun sözlərinə görə, Ukrayna 2026-cı ilə qədər 20 milyon dron istehsal edə bilər. Bu planın tərəfdaşlardan əlavə maliyyə cəlb etməsi ilə reallaşması mümkündür. Nazir, həmçinin bildirib ki, Almaniya ilə müdafiə sahəsində əməkdaşlıq və Ukrayna briqadalarının Polşada təlimi ilə bağlı mühüm memorandumlar imzalanıb. Bundan əlavə, "Ramştayn" formatı çərçivəsində Nordiç-Baltikyanı təlim təşəbbüsü üzrə anlaşma memorandumu imzalanıb. Sənədə əsasən, ölkələr Kiyevə hərbi kadrların hazırlanmasında və bölmələrin komplektləşdirilməsində dəstək verəcəklər ki, bu da NATO-nun müasir standartlarına cavab verən briqadaların formalaşdırılmasına imkan verəcək. "Toplantıda digər mühüm məqam Nordiç-Baltik Təşəbbüsü haqqında memorandumun imzalanmasıdır. Bu təşəbbüs Ukraynanın müdafiə qabiliyyətini gücləndirəcək və ədalətli sülhün yaxınlaşmasına kömək edəcək", - deyə Şmıqal söyləyib. Qeyd edək ki, qarşı tərəfdən sazişi Norveçin müdafiə naziri Tore Sandvik imzalayıb. Təşəbbüsə Danimarka, Estoniya, Finlandiya, İslandiya, Latviya, Litva, Norveç, Polşa və İsveç də qoşulub.




### Pentaqon rəhbərindən xəbərdarlıq

Pentaqon rəhbəri Pit Heqset isə toplantıda ABŞ Prezidenti Donald Trampın rəhbərliyi altında və avropalı müttəfiqləri ilə birlikdə Rusiya-Ukrayna müharibəsinə son qoymaq üçün hər cür səy göstəriləcəyini bəyan edib. "Münaqişə qısa müddətdə bitməsə, ABŞ tərəfdaşları ilə birlikdə Rusiyanın davamlı təcavüzünün bədəlini ödəməsi üçün lazımi tədbirlər görəcək", - deyə Heqset vurğulayıb. O bildirib ki, Tramp sülhün uzaq göründüyü ən çətin vəziyyətlərdə belə sülh üçün imkanlar yaratmağa qadirdir.

Xatırladaq ki, dünyanın onlarla ölkəsinin iştirak etdiyi "Ramştayn" platforması Ukraynanın Müdafiəsi üzrə Təmas Qrupunun müntəzəm görüşlərinin adıdır. İlk görüş 2022-ci ildə Almaniyada yerləşən ABŞ-ın "Ramştayn" hərbi bazasında keçirilib və adını da oradan alıb. Bu iclasların məqsədi Ukraynaya Rusiyaya qarşı müharibədə hərbi yardımın koordinasiyası, müdafiə ehtiyaclarının müzakirəsi, silah tədarükü, hərbçilərin təlimi və uzunmüddətli dəstəklə bağlı məsələlərin həllidir. "Ramştayn" iştirakçıları NATO ölkələri, Avropa İttifaqı dövlətləri və Ukraynanın digər tərəfdaşlarıdır. Bu görüşlər tanklar, hava hücumundan müdafiə sistemləri, artilleriya və digər silah növlərinin verilməsi ilə bağlı qərarların qəbul olunduğu əsas platformaya çevrilib.

*N.BAYRAMLI*

# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



**"Yeni Azərbaycan" qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

"Azərpoçt" MMC PDM- 0125984955, 0552004544
"Azərmətbuatyayımı" ASC - 0124411991, 0124404694
"Səma" MMC - 0125940252, 0503336969
"PressInform" MMC - 0703400100, 0504560835
"Qaya" MMC - 0125667780, 0502352343
"Bakmətbuat" MMC - 0124314313
"Ziya LTD" MMC - 0124977696, 0503067744

**6 aylıq abunə - 79,20 AZN**
**12 aylıq abunə - 158,40 AZN**






# İftixar Piriyev "Çingiz Aytmatov" medalı ilə təltif edilib

Görkəmli teatr sənəti xadimi, Azərbaycanın Əməkdar mədəniyyət xadimi, şair, dramaturq, aktyor, rejissor, təşkilatçı, Azərbaycan Milli Elmlər Akademiyasının aparıcı elmi işçisi, sənətşünaslıq üzrə fəlsəfə doktoru İftixar Piriyev nüfuzlu beynəlxalq mükafata layiq görülüb.

"Beynəlxalq İssık-Kul Forumu"nun vitse-prezidenti Dinara Cumabayevanın AZƏRTAC-a verdiyi məlumata görə, "Çingiz Aytmatov adına Beynəlxalq İssık-Kul Forumu" Rəyasət Heyətinin qərarı ilə incəsənət vasitəsilə xalqlar arasında sülhün və dostluğun möhkəmləndirilməsində müstəsna xidmətlərinə, türkdilli xalqların ortaq mədəni irsinin təbliğinə, xüsusilə Azərbaycan-Qırğızıstan ədəbi və teatr əlaqələrinin inkişafına verdiyi mühüm töhfəyə görə İftixar Piriyev "Çingiz Aytmatov" medalı ilə təltif edilib.

İftixar Piriyev təkcə istedadlı rejissor və aktyor kimi deyil, həm də fəlsəfə, psixologiya və səhnə ifadəsini özündə birləşdirən "qeyri-səlis məntiq" sisteminə əsaslanan orijinal konsepsiyasını səhnə sənətinə tətbiq edən teatr təfəkkürünün novatoru kimi tanınır.

Forumun təşkilatçıları onun xidmətlərini qiymətləndirərək vurğulayıblar ki, Piriyev dahi yazıçı Çingiz Aytmatovun ideyalarının daşıyıcısı kimi öz missiyasını uğurla yerinə yetirir, onun humanist irsini və yüksək mənəvi dəyərlərini teatr, poeziya, elmi-yaradıcılığı ilə fəal şəkildə təbliğ edir.

İftixar Piriyev "Beynəlxalq İssık-Kul Forumu" çərçivəsində baş tutacaq fəxri "Çingiz Aytmatov" medalının təqdimetmə mərasimində iştirak etmək üçün Bişkekə dəvət olunub.

Bu mükafat onun çoxillik səmərəli əməyinə verilən qiymət olub və türkdilli xalqların mədəni birliyinin rəmzinə çevrilib.

# Qızıl rekordları yeniləyir

## Əlvan metalın qiyməti sıçrayışla artmaqdadır



2025-ci ilin oktyabr ayının ilk yarısı dünya birjalarında qızılın qiymətinin kəskin bahalaşması ilə müşayiət olunub. Əlvan metalın bir troya unsiyasının qiyməti 4 min 225 dolları ötüb. Təkcə son bir gündə birjalarda qiymət artımı 0,88 faiz və ya 36,7 dollar təşkil edib. Azərbaycan manatı ilə ifadə etdikdə, 1 qram qızılın qiyməti təxminən 231 manata bərabərdir. Bu, qiymət səviyyəsi 2025-ci ilin əvvəlindən bəri ən yüksək göstəricilərdən biri kimi qiymətləndirilə bilər. Belə ki, qızılın son bir ayda dəyəri 13,6 faiz, altı ayda isə 26,3 faiz, ötən 9 ayda isə 45 faizə yaxın yüksəlib. Ötən ilin eyni dövrü ilə müqayisədə isə bu dəyərli metal 55,5 faiz, son beş ildə isə 120 faiz bahalaşıb. Bazar situasiyaları onu ehtiva edir ki, qızıl qarşısıalınmaz sıçrayışla hər ay dəyərini artıraraq sərmayə baxımından ən etibarlı yığım aləti kimi möhkəmlənir.

ABŞ-ın qızıl birjaları assosiyaları üzrə məşhur UBS analitiklərinin fikrincə, qızıl qiymətinin 2025-ci ilin sonunda və növbəti ildə yenidən artmağa davam edəcəyi proqnozlaşdırılır. Bu amil investorlar arasında da yığımların transformasiyasına yeni stimullar verməkdədir. Ehtimal olunur ki, qlobal səhmdarlar dünya səhm bazarındakı dəyişkənliklərə cavab olaraq, öz yığımlarını daha təhlükəsiz investisiya seçimlərinə, daha doğrusu qızıla yönəldəcək. Analitiklərin fikrincə, külçə qızıl üzrə tələbin artması ilə qiymətlərin 2026-cı ilin əvvəlində 5000 dolları ötəcəyi gözlənilir.

## Ticarət müharibələri və qlobal risklər

Qlobal analitiklər qiymətlərin sürətlə artmasına ticarət müharibələri, tənəzzül gözləntiləri, ABŞ-ın yumşaq pul siyasəti və mərkəzi banklardan tələbatın artmasının səbəb olduğunu qeyd edirlər. Qızılın bahalaşmasına ABŞ-da Donald Trampın prezident seçilməsindən sonrakı investisiya fraqmentasiyalarının təsirləri az rol oynamır. Trampın yeni maliyyə siyasəti ucuz dollar, bahalı qızıl və rəqəmsal valyuta investisiyasına əsaslanır. Çünki dolların ucuzlaşması istehsal və ixracı yüksəldir ki, bu da Amerikadan qlobal bazarlara daha çox mal və əmtəələrin çıxışına səbəb olur. Bu siyasət nəticə etibarilə iqtisadi aktivliyi və ixrac gəlirlərini yüksəldir. Dollar ucuzlaşanda isə qızıl və blokçeynlər bahalaşır.

Bu baxımdan qiymət artımının əsas amillərindən biri kimi ABŞ Federal Ehtiyat Sisteminin son bir ayda faiz dərəcəsini aşağı salmaq siyasəti də təsiredici rol oynayır. FED-in yumşaq pul siyasəti valyuta və borc alətlərinə investisiyaları daha az cəlbedici edir və qızıl yığımlarına transformasiyanı artırır. Eləcə də qlobal geosiyasi qeyri-müəyyənlik və Donald Tramp administrasiyasının sərt ticarət siyasəti də bazarlara öz təsirlərini göstərir.

## Qlobal səhmdarlar pullarını qızıla çevirir

Mərkəzi bankların artan tələbi də bazara xüsusi təsir göstərir. Son illər onlar ehtiyatlarını aktiv şəkildə diversifikasiya edir, qızılın payını artırırlar. "Goldman Sachs" analitiklərinin fikrincə, mərkəzi banklar, xüsusən də inkişaf etməkdə olan ölkələrin bu qurumları qızılla ehtiyatlarının struktur şaxələndirilməsini davam etdirir. Ümumdünya Qızıl Şurasının məlumatına görə, 2025-ci ildə dünya mərkəzi banklarının xalis qızıl alışı əvvəlki illə müqayisədə 40 faizdən çox artaraq 800 tona çatıb. Dünyada investisiya aləti kimi qızıla tələbat isə 5 min tonu ötüb. Bankların 2025-ci ildə orta hesabla 80 ton, 2026-cı ildə isə daha 70 ton qızıl alacağını proqnozlaşdırır. Eləcə də, böyük iqtisadiyyata malik ölkələr - Çin, Səudiyyə Ərəbistanı, Braziliya, Türkiyə, Almaniya və Hindistan da əvvəlki ehtiyatların xarici valyutada saxlanması təcrübəsindən imtina edərək qızıl ehtiyatlarını fəal şəkildə artırırlar. Nəticədə bu amillər qızıla olan tələbi artırır və qiymətləri yüksəldir.

Mövcud situasiyalar investorlar arasında digər pul və invesisiya alətlərinin qızıl yığımlarına transformasiyasına yeni stiummlar verməkdədir. Ehtimal olunur ki, qlobal səhmdarlar dünya səhm bazarındakı dəyişkənliklərə cavab olaraq, öz yığımlarını daha təhlükəsiz investisiya seçimlərinə, daha doğrusu qızıla yönəldəcək.

## Azərbaycan da qızıl rezervlərini artırır

Dünya bazarında bu dəyərli metalın qiymət volatilliyi Azərbaycana da təsirsiz ötüşmür. Qızıl iqtisadiyyatda çətin zamanların təhlükəsiz limanı rolunu oynadığından bütün investorlar kimi azərbaycanlı bank və fondlar, o cümlədən Mərkəzi Bank, Dövlət Neft Fondu öz portfellərində qızıl investisiyalarına üstünlük verməkdədir. Neft Fondu 2025-ci ilin birinci yarısında 34,5 ton qızıl alaraq öz portfelini möhkəmləndirib. 2024-cü ilin sonunda 146,6 ton qızıl altportfelinə malik DNF-nin hazırda qızıl investisiyaları 181 tondan artıqdır. Fondun yeni investisiya siyasətinə əsasən, investisiya portfelinin məcmu dəyərinin 25 faizə qədəri qızıla investisiya edilə bilər ki, bu da əlvan metal yığımının cəlbediciliyinə işarədir.

*E.CƏFƏRLİ*

# Boşanmalar azalıb, amma...

## Ayrılıqdan sonrakı "ittihamlar dövrü"!

## Tərəflər necə davranmalıdır?

**Boşanma yalnız iki insanın münasibətlərini sona çatdırmaqla qalmır, bəzən tərəflər bir-birinə qarşı sərt ittihamlar irəli sürürlər. Məhz bu ittihamlar arasında ən çox unudulan və zərbə alanlar da uşaqlardır. Təəssüf ki, boşanma sonrası yaşanan ən acı reallıqlardan biri əksər kişilərin ata olaraq məsuliyyətlərindən qaçmalarıdır. Bir çox hallarda isə qadınlar boşanmanın ardından uşağı "silah" kimi istifadə edərək, keçmiş həyat yoldaşlarına qarşı bir növ nəzarət mexanizmi kimi istifadə edirlər. Məlumdur ki, bu, həm uşağın, həm də ayrılmış tərəflərin həyatını daha da çətinləşdirir, uzunmüddətli psixoloji zərbələr yaradır.**

## 13869 boşanma halları qeydə alınıb

Ötən ay ölkədə qeydə alınan nikah və boşanmaların sayı açıqlanıb. Bununla bağlı Dövlət Statistika Komitəsi (DSK) aylıq hesabatını qeyd edib. Bildirilib ki, Ədliyyə Nazirliyinin rayon (şəhər) qeydiyyat şöbələri tərəfindən cari ilin yanvar-avqust ayları ərzində 31403 nikah və 13869 boşanma halları qeydə alınıb və ötən ilin müvafiq dövrü ilə müqayisədə əhalinin hər 1000 nəfərinə nikahların sayı 4,5-dən 4,6-ya qədər artıb, boşanmaların sayı isə 2,1-dən 2,0-a düşüb.

Statistik rəqəmlərdən göründüyü kimi, ötən illə müqayisədə ölkədə boşanmaların sayında azalma müşahidə olunur. Buna baxmayaraq, hələ də cəmiyyətimizdə boşandıqdan sonra uşaqların psixoloji durumuna, ümumiyyətlə gələcəyinə biganə qalan valideynlər var.

## Bəzi valideynlər şəxsi maraqlarına fokuslanırlar

Mövzu barədə fikirlərini "Yeni Azərbaycan"la bölüşən sosioloq Arzu Babayeva bildirib ki, boşanma yalnız valideynlər üçün deyil, uşaqlar üçün də ağır bir dönəmdir. Onun sözlərinə görə, təəssüf ki, bəzi valideynlər boşanmanın uşağın psixoloji durumu və gələcəyi üzərində yaratdığı təsirləri nəzərə almadan, yalnız öz şəxsi maraqlarına fokuslanırlar. Bu da uşaqların gələcəyini təhlükə altına alır və onların emosional sağlamlığına böyük zərər vurur: "Boşanmanın uşaqlar üzərindəki təsiri hər bir fərd üçün fərqli olsa da, ümumiyyətlə, uşaqların psixoloji vəziyyəti çox dəyişkən və həssas ola bilər. Onlar bir tərəfdən valideynlərin ayrılmasından yaranan narahatlıq, kədər və qorxu hissi ilə baş etməyə çalışır, digər tərəfdən isə öz gələcəkləri ilə bağlı dərindən düşünməyə başlayırlar. Bu müddət uşaqlar üçün çox mürəkkəb və qarışıq ola bilər. Hətta böyüklər belə böhrandan sonra bəzən emosional yüklə başa çıxa bilmirlər, uşaqlar isə bununla necə baş etməli olduqlarını çox zaman bilmirlər".



## Təkcə maddi dəstəklə kifayətlənmək yanlışdır!

A.Babayeva qeyd edib ki, cəmiyyətimizdə bəzi valideynlərin, xüsusilə də boşanmanın uşaqlarına gətirdiyi psixoloji yükü və emosional boşluğu nəzərə almadıqlarını göstərən çoxlu hallar var: "Bir çox halda valideynlər yalnız maddi tərəfi düşünərək uşaqların psixoloji ehtiyaclarını gözardı edirlər. Məsələn, bir ata və ya ana uşaqlarının yalnız həyatlarını davam etdirmək üçün maddi dəstəyi təmin etməyi kifayət bilirlər, amma onların emosional vəziyyəti ilə maraqlanmırlar. Həmçinin, boşanmış valideynlər arasında tez-tez baş verən münaqişələr və qarşıdurmalar uşaqlar üçün çox zərərlidir. Çünki onlar valideynlərinin mübarizələrinin, inciklərinin və bir-birinə qarşı duyduğu qəzəbin şahidi olurlar. Bu isə uşağın özünə olan inamını və dünyaya baxışını ciddi şəkildə poza bilər".

Sosioloqun fikrincə, boşanma dövrü bir çox insanlar üçün "ittihamlar dövrü" olur: "Hər iki tərəf bir-birini günahlandırır, keçmişdəki səhvlər və uğursuzluqlar ön plana çıxarılır, hiddət və qəzəb hissləri üzə çıxır. Amma, boşanma nə qədər çətin olsa da, bu, iki valideynin uşaq üçün qarşılıqlı olaraq məsuliyyətlərini yerinə yetirməmələri üçün səbəb olmamalıdır.

## Ortaq məxrəcə gəlmək vacibdir...

Bir-birini təhqir etmək, keçmişdəki yanlışları müzakirə etmək, uşaqları buna alət etmək daha çox onların övladlarının hərtərəfli inkişafına ziyandır.

Əksinə, uşaqların rifahı və emosional sağlamlığı üçün tərəflərin bir araya gəlməyi bacarması, öz fərdi hisslərini bir kənara qoyaraq ortaq məxrəcə gəlmələri çox vacibdir. Bu, həqiqətən çox önəmli bir məsələdir və cəmiyyət olaraq, boşanmış valideynlərin öz aralarındakı münasibətləri necə qurduqları uşaqların gələcəyi üçün əvəzsizdir".

*Yeganə BAYRAMOVA*


Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
**Ünvan:** Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
598-37-76, 498-82-21
498-81-24, 498-19-84

İndeks: 67100
Lisenziya: N-B-317
Tiraj: 4994
Sifariş: 2108
"Kapital Bank" ASC-nin Nərimanov rayon filialı
h/h - 33080019443900419109
kod - 200093
VÖEN - 1500486601

Qəzet "Yeni Azərbaycan"ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilib.

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova